Ev almaq daha da çətinləşəcək

Bakı şəhərində mənzillərin qiyməti sürətlə artır. Hesablamalara görə, bu il bahalaşma 10 faizdən çox olub.

Ekspert Elnur Fərzəliyev deyib ki, yenitikili binaların inşası üçün torpaq sahələri həddindən artıq bahadır: "Bakı şəhərində daşınmaz əmlak bazarında son illər qiymət artımları davam edir. Son üç ildə artımların daha çox olduğu müşahidə edilir. Yeni tikilən binalardakı qiymətlərin artmasına əsas səbəb paytaxtın mərkəz və mərkəzə yaxın ərazilərində çoxmənzilli yaşayış binalarının inşa olunması üçün torpaq sahələrinin olmamasıdır. Məhdud sayda torpaqların da qiyməti çox bahadır ki, bu da tikintinin maya dəyərini artırır. Əvvəlki illərdə tikinti şirkətləri torpağın bir sotunu təxminən 25-30 min manata alırdılarsa, hazırda bu qiymətlər 70-150 min manat arasında dəyişir".

SƏHİFƏ 7-DƏ



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

28 OKTYABR ŞƏNBƏ 2023 | 41 (4142) Qiyməti - 40 qəpik www.kaspi.az

FRANSANIN BARMAĞI OLAN YERDƏ SÜLH MÜQAVİLƏSİ İMZALAMAQ MÜMKÜN DEYİL

BRÜSSEL GÖRÜŞÜ NİYƏ TƏXİRƏ SALINDI?

İnanmaq olmaz ki, yaxınmüddətli perspektiv üçün Brüssel formatı dalan kimi qeyd ediləcək. Amma münasibətlərin region dövlətlərinin öz səyləri ilə yoluna qoyulması üçün Azərbaycanın təşəbbüslərini də qeyd etmək lazımdır.

BU İŞDƏ DƏ FRANSANIN BARMAĞI VAR

Növbəti danışıqların baş tutmaması Fransa ilə Ermənistan arasında müdafiə sahəsindəki ikitərəfli əməkdaşlığa dair sənədin imzalanması ilə əlaqədar ola bilər. Məhz Fransa faktorundan çıxış edəndə elə Brüssel görüşünün vaxtının qeyri-müəyyən müddətə geri çəkilməsinin səbəbi də Parisin "sehrli çubuğu" ilə aydınlanır.

TEHRAN GÖRÜŞÜ VACİB MƏQAM KİMİ

Başqa bir məqamın da vurğulanması labüddür. Belə ki, Əliyevlə Paşinyanın gözlənilən Brüssel danışıqlarının təxirə düşməsinin elanı Tehranda "3+3" formatında keçirilən görüşdən sonraya təsadüf etdi. Bu, olduqca vacib bir nöqtədir.

SƏHİFƏ 3-DƏ

"O QƏDƏR DƏ OPTİMİST DEYİLƏM"

VAXT DA GEDİR, YAŞ DA...

Xalq artisti Ramiz Həsənoğlu yaradıcılığına bir az təvazökar yanaşır. Baxmayaraq ki, adını kino, teatr və televiziya tariximizə yazdıran tamaşaların, filmlərin rejissoru kimi sevilir. Yeni işlərini isə təkcə özü yox, onun dəst-xəttini sevən və hər zaman darıxan tamaşaçılar səbirsizliklə gözləyirlər. Xalq artisti "Kaspi"yə müsahibəsində görmək istədiyi işlərin, sənətlə bağlı arzularının çox olduğunu dedi.

SƏHİFƏ 8-9-da

SIFIR İMKANLA MAKSİMUM NƏTİCƏ XÜLYASI

Ermənilərin problemi budur ki, imkanları ilə istəklərini uzlaşdıra bilmirlər. Özü də söhbət tək 2020-ci ilin müharibəsinin erməni cəmiyyəti üçün acı nəticələrindən getmir.

SƏHİFƏ 4-də

"HALAL"A HARAM QATANLAR

"Halal" adı altında satılan məhsulların keyfiyyəti ilə bağlı müəyyən narazılıqlar var. Artıq müvafiq dövlət qurumları da bu sahədə problemlərin olduğunu etiraf edirlər.

SƏHİFƏ 11-də



RƏQƏMLƏR "AZALIB" DEYİR, FERMERLƏR İNANMIR

Azərbaycanda quş əti istehsalı azalıb, yumurta istehsalı isə artıb. Lakin rəsmi statistika ilə mövcud rəqəmlər arasında uyğunsuzluq olduğu iddia edilir.

SƏHİFƏ 14-də

"PİANO ARXASINDA OTURANDA XOŞBƏXT OLURAM"

"Sevdiyiniz sənətin arxasınca gedin. Balınız çatmadığı üçün sevmədiyiniz sahəni seçməyin, onda ömür boyu əziyyət çəkəcəksiniz. İnsanın öz işini sevməsi xoşbəxtlikdir".

SƏHİFƏ 15-də

QƏZZA ÜÇÜN "MARŞAL PLANI" TƏKLİFİ

Bir çoxları hesab edirlər ki, belə getsə, müharibəyə qonşu dövlətlər - Misir, Livan da qoşula bilər. Hətta gələcəkdə digər ərəb dövlətlərinin də müharibəyə qoşulması nəzəri cəhətdən mümkündür.

SƏHİFƏ 6-da

RESTORANLARDA MİLYONLAR XƏRCLƏYİRİK

Çayxor millət olsaq da, artıq insanlarda kofe mədəniyyəti formalaşıb. Səhər yeməyi də həmçinin. Məsələn, bundan öncə bizim mentalitetimizdə səhər yeməyinə getmək yox idi.

SƏHİFƏ 13-də

İSİNMƏK ÜÇÜN MÜQAVİLƏ BAĞLA!

Qarşıdan yeni istilik mövsümü gəlir. Bununla əlaqədar "Azəristiliktəchizat" sakinlərlə müqavilələr bağlamağa başlayıb. Lakin açıq qalan sualların çoxluğu vətəndaşlarda narahatlıq yaradır.

SƏHİFƏ 10-da

Əsədov Paşinyanla görüşüb — Səhifə 2-də

SOCAR və "Qazprom" arasında müzakirələr — Səhifə 2-də



Samvelin arzusu, Serjin fırıldağı — Səhifə 5-də

Bağçalarla bağlı daha bir yenilik — Səhifə 12-də

Futbolumuzda yeni sima — Səhifə 16-da

Prezidentin Qarabağ siyasəti alqışlanır

Sosial Tədqiqatlar Mərkəzi ölkə rəhbərinin Qarabağ məsələsinin həlli istiqamətində fəaliyyəti ilə bağlı ictimai gözləntiləri öyrənmək məqsədilə növbəti sorğular keçirib. Bu məqsədlə vətəndaşlara "Prezidentin Qarabağ probleminin həlli istiqamətində fəaliyyəti gözləntilərinizi doğrultdumu?" sualı ünvanlanıb. Bu barədə STM-dən məlumat verilib. Bildirilib ki, sorğunun nəticələrinə əsasən, respondentlərin mütləq əksəriyyətinin rəyində dövlət başçısının Qarabağ probleminin həlli istiqamətində fəaliyyətindən birmənalı razılıq ifadə edilib. Belə ki, iştirakçıların 75.0%-i prezidentin Qarabağ probleminin həlli istiqamətində fəaliyyətinin onun gözləntilərini tam doğrultduğunu, 24%-i əsasən doğrultduğunu deyib. 0.5%-i gözləntilərini əsasən doğrultmadığını, 0.3%-i heç doğrultmadığını bildirib.

Əli Əsədov Nikol Paşinyanla görüşüb

Oktyabrın 27-də Tbilisidə Azərbaycanın Baş naziri Əli Əsədovla Ermənistan baş naziri Nikol Paşinyan arasında görüş keçirilib. "Report" TASS-a istinadən xəbər verir ki, bu barədə Gürcüstan hökumətinin mətbuat xidməti məlumat yayıb. Görüş Gürcüstan hökumətinin başçısı İrakli Qaribaşvilinin vasitəçiliyi ilə Tbilisi yaxınlığındakı Muxranidə keçirilib. Danışıqların təfərrüatı açıqlanmayıb. "İmedi" telekanalının məlumatına görə, üçtərəfli görüş bir neçə saat davam edib.

SOCAR və "Qazprom" arasında müzakirələr

Rusiyanın "Qazprom" şirkəti və Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Azərbaycanda qaz mühərriki yanacağı bazarının inkişaf etdirilməsi imkanlarını müzakirə ediblər. "Report" "Qazprom"un məlumatına istinadən xəbər verir ki, müzakirələr "Qazprom"un İdarə Heyətinin sədri Aleksey Millerlə SOCAR prezidenti Rövşən Nəcəf arasında keçirilən işgüzar görüşdə aparılıb. "Tərəflər qaz sahəsində şirkətlər arasında əməkdaşlığın cari və gələcək məsələlərini nəzərdən keçiriblər", - məlumatda deyilir.

MƏQSƏDLİ SEÇİM

Qaradağ Günəş Elektrik Stansiyası Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır. 550 hektar ərazini əhatə edən elektrik stansiyada 570 min günəş paneli quraşdırılıb.

Azərbaycanın "yaşıl enerji"yə keçid strategiyası uğurla reallaşdırılır. Son illərdə bərpa olunan enerji infrastrukturunun yaradılması istiqamətində istər yerli, istərsə də xarici investisiyaların cəlbi ilə meqalayihələr həyata keçirilir.

MDB MƏKANINDA BİR İLK

Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə əməkdaşlıq sayəsində inşa edilən 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının çox qısa zaman kəsiyində istifadəyə verilməsi xüsusilə diqqətəlayiqdir. Qeyd edək ki bu, Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır. Stansiya 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş elektrik stansiyasıdır. Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda, atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyada 570 min günəş paneli quraşdırılıb.

10 QİQAVATA QƏDƏR BƏRPAOLUNAN ENERJİ İSTEHSALI

Açılış mərasimində çıxış edən Prezident İlham Əliyev də bir daha dövlətimizin "yaşıl enerji"yə keçid strategiyasının detalları və məqsədlərini açıqlayıb. Dövlət başçısı bildirib ki, biz mərhələlərlə 10 qiqavata qədər bərpaolunan enerji istehsal etmək üçün birgə işləməyi planlaşdırırıq və bu, regionun enerji inkişafında tam bir inqilab olacaq: "İndi bizim zəngin yanacaq ehtiyatlarımızın olduğunu nəzərə alaraq, biz yaşıl gündəliyə doğru irəliləyirik. Bu, məqsədli seçimdir. Bu, bizim təkcə Azərbaycanın gələcək inkişafına deyil, həm də iqlim dəyişikliyi ilə bağlı məsələlərə töhfəmizdir. Ona görə də mən ümidvaram və tam əminəm ki, bizim bütün planlarımız həyata keçəcək".

ƏSAS İQTİSADİ HƏDƏFİMİZ

Qeyd edək ki, məlum strategiyanın reallaşdırılmasını şərtləndirən ən mühüm amillərdən biri, uzun illər ərzində yaradılmış əlverişli investisiya mühitidir. Dövlət başçısının da vurğuladığı kimi, Azərbaycan xarici investisiyalar üçün çox açıq ölkədir: "Azərbaycana ümumi investisiyalar 300 milyard ABŞ dollarından çox olub və bunun təqribən 200 milyard ABŞ dolları qeyri-neft sektorunun payına düşür. Hazırda bizim iqtisadi hədəfimiz qazıntı yanacağından asılılığımızı azaltmaq üçün iqtisadiyyatımızı şaxələndirməyi davam etdirməkdir. Lakin, eyni zamanda, biz başa düşürük ki, bizim neft və qazımıza hələ uzun illər ərzində beynəlxalq bazarda tələbat olacaq. Bu məqsədlə çoxsaylı neft və qaz kəmərləri sistemi istismara verilib və indi biz neft və qazı müxtəlif istiqamətlərə ixrac edirik. Azərbaycan beynəlxalq bazarlara neft, təbii qaz, neft məhsulları, neft-kimya məhsulları, elektrik enerjisi ixracatçısıdır".

GƏLƏCƏK PLANLAR VƏ POTENSİAL BARƏDƏ

Təbii ki, bərpa olunan enerji strategiyasının tərkib hissəsi tək ölkədaxili tələbat deyil, həm də xarici ixracdır. Çıxışında bu məsələyə toxunan Prezident İlham Əliyev bildirib ki, növbəti illərdə biz hidrogeni, o cümlədən yaşıl hidrogeni ixrac edəcəyik: "Bu məqsədlə biz bu potensialı yaratmaq üçün tərəfdaşlarımızla, dünyanın müxtəlif ölkələrindən olan şirkətlərlə çox yaxından işləyirik. Biz əlbəttə ki, milli enerji şəbəkəsini gücləndirməliyik və qeyd etdiyim kimi, dövlət proqramı icra olunur. Biz hər şeyi vaxtında edəcəyik. Biz artıq maliyyə resursları ayırmışıq ki, bərpaolunan enerji mənbələrini istehsal edən investorlarımız özlərini tamamilə rahat hiss etsinlər. Eyni zamanda, sizə məlumat vermək istəyirəm ki, bizim bərpaolunan enerji gündəliyimiz təkcə günəş və ya külək elektrik stansiyaları ilə məhdudlaşmır. Hazırda biz üç il bundan əvvəl işğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun ərazilərində hidroenerji potensialımızı fəal şəkildə inkişaf etdiririk. Biz artıq 170 meqavat gücündə olan hidroelektrik stansiyalarını istismara vermişik və bu ilin sonuna kimi bu, 270 meqavata çatacaq. İki-üç ildən sonra hidroelektrik stansiyaların gücü 500 meqavat olacaq. Bu da yaşıl enerjiyə keçid prosesinə digər mühüm bir töhfə olacaqdır".

CƏNUBİ QAFQAZDA TOQQUŞAN SİYASİ MARAQLAR

BRÜSSEL DANIŞIQLARI NİYƏ TƏXİRƏ SALINDI?

İnanmaq olmaz ki, yaxınmüddətli perspektiv üçün Brüssel formatı dalan kimi qeyd ediləcək. Amma münasibətlərin region dövlətlərinin öz səyləri ilə yoluna qoyulması üçün Azərbaycanın təşəbbüslərini də qeyd etmək lazımdır.

AQŞİN KƏRİMOV

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın oktyabrın sonunda Brüsseldə görüşməyəcəyini bildirib. O qeyd edib ki, görüşün təxirə salınmasına səbəb vaxt çatışmazlığıdır.

Əlbəttə ki, Əliyevlə Paşinyanın görüşünün təxirə salınmasının daha mübahisəli və mürəkkəb tərəfləri mövcuddur.

BU İŞDƏ DƏ FRANSA BARMAĞI

Brüssel formatındakı növbəti danışıqların baş tutmaması Fransa ilə Ermənistan arasında müdafiə sahəsindəki ikitərəfli əməkdaşlığa dair sənədin imzalanması ilə əlaqədar ola bilər.

Məhz Fransa faktorundan çıxış edəndə elə Brüssel görüşünün vaxtının qeyri-müəyyən müddətə geri çəkilməsinin səbəbi də Parisin "sehrli çubuğu" ilə aydınlanır.

Görünür ki, Fransa Cənubi Qafqaza öz qiymətini verib region dövlətlərini həmin dəyərə həvəsləndirməyə çalışır, lakin Azərbaycan üçün bu variant qəti məqbul deyil.

Ən azından ondan ötrü ki, Fransa regional dağınıqlığın düzəldilməsində özünə möhkəm yer edən Türkiyənin strateji profilini həzm edə bilmir. Parisin tövrü Azərbaycanı Türkiyənin müdafiəsi üçün lazım olan tədbirləri həyata keçirmək çağırışını icra etməyə vadar edir.

Ehtimal ki, Fransa Brüssel formatındakı danışıqlara yenə də özünün müdaxilə cəhdini gerçəkləşdirmək istəyib. Ancaq Azərbaycanla Türkiyə regionda sülhə və təhlükəsizliyə görə daşıdığı cavabdehlikləri Fransanın ambisiyalarına qurban vermək niyyətində deyillər, bu istiqamətdə qətiyyətlərini böyük bir üslubla nümayiş etdirirlər.

TEHRAN GÖRÜŞÜ VACİB MƏQAM KİMİ

Başqa bir məqamın da vurğulanması labüddür. Belə ki, Əliyevlə Paşinyanın gözlənilən Brüssel danışıqlarının təxirə düşməsinin elanı Tehranda "3+3" formatında keçirilən görüşdən sonraya təsadüf etdi. Bu, olduqca vacib bir nöqtədir.

Bu versiyada təxirədüşmənin səbəbi kimi Paşinyanın mövqeyi görünür. Əgər bu variantda doğruluq payı varsa, o zaman Paşinyan Brüssel formatının nisbi sakitliyə keçməsi ilə vaxt qazanmağa çalışır. Fransa ilə silahlanma üçün əməkdaşlıq sazişi də həmin fikri gücləndirir.

RUSİYA DANIŞIQLARDA DOMİNANT OLMAQ İSTƏYİR

Həmin versiyanın davamı olaraq Rusiyanın da görüş üçün təşəbbüslərini qeyd etməyə ehtiyac yaranır. Kreml üçün Moskva mərkəzli danışıqlar formatı qala-qala danışıqların Brüsseldə aparılması məqsədəuyğun deyil. Düzdür, Azərbaycan formatı özü seçir, sərf edənə gedir, etməyəni qəbul etmir, Ermənistanın isə belə seçim imkanı yoxdur. İrəvan ya diktə ilə, ya da ona verilən şirniklendirici vədlər hesabına məcburiyyət qarşısında seçimini edir.

Rusiya Ermənistanın yalnız kağız üzərində müttəfiqidir. Kreml üçün Ermənistanın xarici siyasət kursunun 180 dərəcə Qərbə doğru yön alması cəhdləri qəbuledilməz olduğundan Moskva İrəvanla müttəfiqliyi heç kağızda da xatırlatmaqda maraqlı deyil. Rusiya regionda yaranan reallıqları böyük geosiyasi və geoiqtisadi təsir rıçaqları kimi nəzərdən keçirir.

Rusiya Qərbin regionda təhlükəsizlik mühitini çirkləndirdiyini əsas gətirərək Ermənistana strateji məhdudiyyətlər qoyur və bunu daha da irəliyə aparmaq fikrindədir.

Toivo Klaar

ERMƏNİSTANIN ETMƏLİ OLDUQLARI

Brüssel danışıqlarının təxirə düşməsindən danışırıqsa, deməli, bu, regionda hansısa təhlükəsizlik klapanının yerindən çıxması riski ilə əlaqəli ola bilər. Çünki Yaxın Şərqdə İsrail-Fələstin münaqişəsinin hərbi eskalasiya cəhətdən pik nöqtəyə çatması Cənubi Qafqazdakı tənzimlənməyən problemlərə də sıçrayır.

İnanmaq olmaz ki, yaxınmüddətli perspektiv üçün Brüssel formatı dalan kimi qeyd olunacaq. Paralel olaraq Azərbaycanın maksimal şəkildə münasibətlərin region dövlətlərinin öz səyləri ilə yoluna qoyulması üçün təşəbbüslərini də qeyd etmək lazımdır.

Strateji nöqteyi-nəzərdən regionda Ermənistanın qarşılaşacağı ağır günlərin hələ qabaqda olduğunu bildirməyə əsaslar var. Ermənistan Azərbaycanla sülhə nail olmaq üçün bir neçə məsələni həll etməlidir. Birincisi, Azərbaycanın sülh paketinə adekvat cavab verməlidir, Bakının hərtərəfli sülh üçün təqdim etdiyi plana qarşı hərarət qaldırmaqdansa, onu yüksək qiymətləndirməlidir.

İkincisi, İrəvan rəsmi şəkildə işğalçılıq doktrinasından və region dövlətlərinə rəsmi və ya qeyri-rəsmi ərazi iddialarından əl çəkdiyini göstərən sənəd qəbul edib, ona uyğun hərəkət etməlidir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

Kaspi ÜÇ ƏSKİN QƏZETİ

Sıfır imkanla maksimum NƏTİCƏ XÜLYASI

Geniş vizyon çatşmazlığından əziyyət çəkən ermənilərin problemi budur ki, imkanları ilə istəklərini uzlaşdıra bilmirlər. Özü də söhbət tək 2020-ci ilin müharibəsinin erməni cəmiyyəti üçün acı nəticələrindən getmir. Ermənistanın arzularını gerçəkliyə çevirməsi üçün resursları və alətləri yoxdur.

RÜSTƏM QARAXANLI

Oktyabrın 23-də Tehranda "3+3" regional platforma çərçivəsində keçirilmiş XİN rəhbərlərinin görüşü lokal problemlərin məhz bölgə dövlətləri tərəfindən çözülməsinin vacibliyini göstərdi. Azərbaycan heç bir qüvvədən asılı olmayan, özü özünü təmin edə bilən, çoxqütblü xarici siyasət yürüdən yetkin dövlətdir. Bakının, məsələn, Tel-Əvivlə, yaxud İslamabadla möhkəm və strateji maraqlara söykənən müttəfiqliyi var. Ancaq sərhəd, sərhədyanı ticarət, logistik marşrutların uzlaşdırılması, enerji mübadiləsi kimi problemlər məhz qonşu dövlətlərlə həll edilməlidir. Gerçəklik budur.

İRƏVANIN HƏZM PROSESİ MÜƏYYƏN VAXT APARACAQ

"3+3" platformasının Tehran sammiti onunla əlamətdar oldu ki, Ermənistan nəhayət bu reallığı qəbul etməyə, daha doğrusu, anlamağa çalışdığının işartılarını verdi. Xarici işlər naziri Ararat Mirzoyanın həm görüşdəki çıxışının məzmunu, həm də sonra İrəvandan verdiyi mesajlar bu reallığın dərk olunduğunu, ancaq hələ də həzm edilmədiyini göstərir. Həzm prosesi müəyyən vaxt aparacaq, İrəvanda başları daşdan-daşa dəydikdən sonra qərar qəbul etməyə alışıblar. Həzmin müddəti Ermənistanın qazana biləcəyi dividendlərin miqdarı ilə tərs mütənasiblikdə olan prosesdir.

Mirzoyanın Tehranda regional əməkdaşlığın vacibliyi və iqtisadi əlaqələrin bərpası kimi mövzulara toxunması, ermənilərin qəflət yuxusundan ayılmaları kimi izah edilə bilər. Onun elə həmin nitqində "mürəkkəb problemlər, tarix" kimi məqamların üzərində dayanması isə ermənilərin uydurulmuş miflərin əsirliyindən qurtulmadıqlarının göstəricisidir. Mirzoyan bir tərəfdən "3+3" platforması çərçivəsində iqtisadi əməkdaşlıq və regional inkişaf mövzularının üzərində konsentrasiya olunmaq istədiklərini göstərməyə çalışır. Digər tərəfdən isə Ermənistan regiondan uzaq olan NATO dövləti Fransa ilə silah alışı, hərbi təhsil və təlimatlandırmaya dair razılaşma əldə edir. Ermənistanın müdafiə naziri Suren Papikyanın bu anlaşma üçün Parisə səfərini məhz "3+3"ün keçirildiyi günə salması təsadüf hesab edilməməlidir.

ERMƏNİ TƏKƏBBÜRÜ VƏ MƏHDUD VİZYON

Geniş vizyon çatşmazlığından əziyyət çəkən ermənilərin problemi budur ki, sıfır imkanlarla maksimum nəticələr xülyasındadırlar. Özü də söhbət tək 2020-ci ilin müharibəsinin erməni cəmiyyəti üçün acı nəticələrindən getmir. Ermənistanın arzularını gerçəkliyə çevirməsi üçün sadəcə resursları və alətləri yoxdur. Əsas regional layihələr hələ hərbi məğlubiyyətdən çox-çox öncə icra olunub və onların hər birində dominant rol Azərbaycana məxsusdur. Sərhədlərin açılması bir yana, bu gün Ermənistanın tək Bakı-Tbilisi-Qars dəmir yolu xəttinə qoşulması özünütəcriddən çıxması yolunda böyük irəliləyiş olar. İrəvan bu yol ilə yanaşı, bütün regional transmilli layihələrdən də kənardadır - neft kəmərlərindən tutmuş logistik yük daşımaları marşrutlarınadək. Bütün bunlar II Qarabağ savaşından öncə, erməni ümummilli təkəbbürünün nəticəsi olaraq baş verib. Bu gün Ermənistanın "3+3" formatlı əməkdaşlıq platformasından bütün gözləntiləri, o cümlədən, Mirzoyanın çıxışında büruzə verdiyi qorxularının da açarı məhz həmin təkəbbürdədir. Erməni xalqı və hakimiyyəti ümummilli miflər və yanlış tarixi təsəvvürlərdən nə qədər tez qurtula bilsələr, reallığın həzmi prosesi də bir o qədər sürətlə və ağrısız baş verər.

Tehran toplantısının nəticələrini və əhəmiyyətini şərh edən Ermənistan parlamentinin sədri Alen Simonyan deyir: "Bu platforma Cənubi Qafqaz bölgəsini əhatə edir ki, bu, bizim üçün çox vacibdir. Əgər sən problemləri regional dövlətlərlə müzakirə etmirsənsə, deməli, Asiya dövlətləri ilə də danışıqlar apara bilməzsən".

Hətta Simonyan kimi apolitik dövlət adamının bu reallıqdan danışması göstərir ki, İrəvanda nələrin baş verdiyini, daha doğrusu, baş verib bitdiyini anlamaq istəyirlər. Simonyanın, demək olar, ilk dəfədir region çərçivələrini aşan və Asiya qitəsinə keçən fikirləri Ermənistan rəhbərliyinin strateji düşünmə bacarıqlarının nə qədər kasad olduğunu göstərir.

MİRZOYANIN QORXULARI

Mirzoyanın Tehrandan sonra İrəvanda səsləndirdiyi daha bir fikir də diqqəti cəlb edir: "3+3" platforması regionun digər ölkələri ilə ünsiyyət qurmaq, ümumi maraq doğuran mövzuları müzakirə etmək üçün əlverişli formatdır... Regionda kommunikasiyaların bloklanmasına gəlincə, Ermənistan özü onların açılmasında maraqlıdır və yanaşmaları dəyişməyib. Ancaq bəzi ölkələr bu konsepsiyaya müəyyən alt mətn daxil etməyə çalışırlar. Bu, bizim üçün qəbuledilməzdir". Bu bəyanat ya İrəvanın qorxusu, ya da danışıqlarda iştirak etməsinə rəğmən, platformanın qarşısında duran hədəfləri sabotaj etmək cəhdidir. Mirzoyanın dediklərinin İrəvanın obyektiv ehtiyatının göstəricisi olduğuna inanmaq bir qədər çətindir. Çünki elə Tehran görüşü ilə eyni vaxtda Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin bizim Zəngəzura heç bir müdaxilə niyyətimizin olmadığını və bu layihənin Ermənistan istiqamətinə marağımızın itdiyini bəyan etməsi Mirzoyanın qorxularının əbəs olduğuna təminatdır. Odur ki, Mirzoyanın eyhamı daha çox regional çağırışlar deyil, uzaq himayədarların təsirindən çıxa bilməmənin təzahürüdür. Nə qədər ki, bölgə məsələlərini uzaqdakı dostların köməkliyi ilə həll etmək istəyirsən, məğlub statusuna rəğmən, sənə edilən güzəştlər də əlindən çıxacaq. Məsələn, Zəngəzur dəhlizinin, daha doğrusu, "Orta dəhliz" kimi qlobal layihənin bir istiqaməti sənin ölkəndən deyil, İrandan keçir. Yəqin İrəvanda İranın üç ildir bəyan etdiyi "qırmızı xətt"inin nədən ibarət olduğunu bundan sonra anlayarlar.

SAMVELİN ARZUSU, SARQSYANIN FIRILDAĞI

Rəsmi Bakının beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan təklif və tələbləri aparıcı güclər tərəfindən qəbul olunmaqdadır. Vaşinqton, Brüssel və Moskva görüşlərinin nəticələrinə dair bəyanatlarda əksini tapan fikirlər prosesin məhz Azərbaycanın diqtə etdiyi şərtlər daxilində irəlilədiyini göstərir.

FUAD ABASOĞLU

Ötən həftənin cümə günü Qarabağ erməniləri İrəvan şəhərində süqut etmiş qondarma rejimin binası qarşısında etiraz şüarları səsləndirdikdən sonra binaya hücum ediblər. Diqqət çəkən məqam odur ki, ətrafa cəlb edilən polis qüvvələri Qarabağ ermənilərinə mane olmayıblar. Adətən, İrəvanda keçirilən etiraz aksiyalarında polislə aksiya iştirakçıları arasında ciddi qarşıdurma olur, amma bu dəfə polis sadəcə seyrçi qalmağı üstün tutub. Özünü hələ də separatçı rejimin lideri sayan Samvel Şahramanyan onlarla görüşərək suallarını cavablandırıb. Bununla belə, etirazlar səngiməyib və aksiya iştirakçıları Samvelin qardaşı Kareni döyməkdən, pencəyini cırmaqdan belə çəkinməyiblər.

AKSİYANI SAMVEL BABAYAN TƏŞKİL EDİB

Erməni KİV-in məlumatına görə, aksiyanın təşkilatçısı separatçı rejimin keçmiş "təhlükəsizlik şurasının katibi" Samvel Babayandır. O, bir qrup Qarabağ ermənisini Şahramanyana qarşı qızışdıraraq binaya göndərib. Bunun bir sıra səbəbləri var. Birincisi, Babayan uzun müddətdir Qarabağ ermənilərinin "lideri" olmaq niyyətindədir və dəfələrlə də bunu dilə gətirməkdən çəkinməyib. İkincisi, mövcud vəziyyətdə diasporun da tələbi və dəstəyi ilə "mühacirət dövləti" söhbəti dövriyyəyə buraxılıb və Samvel bu işi öz üzərinə götürmək niyyətindədir. Üçüncüsü, S.Babayan Ermənistanın baş naziri Nikol Paşinyana yaxın adamdır və onun diktəsi ilə hərəkət edir. Bu aksiya isə Paşinyanın maraqlarına uyğundur.

NİKOL PAŞİNYANIN DİKTƏSİ

Qarabağ ermənilərinin etiraz aksiyasının ilk dəqiqələrindən sifarişçinin baş nazir Nikol Paşinyan olduğunu sezmək mümkün idi. Polisin laqeyd münasibəti, aksiya iştirakçılarının baş nazir əleyhinə heç bir şüar səsləndirməməsi bundan xəbər verir. Əslində sosial problemlərdən sıxılan, polis tərəfindən cərimələnən, bir az bankda pulu olduğu üçün yardımdan məhrum edilən Qarabağ ermənisinin Paşinyanın əleyhinə yox, sırf separatçı rejim əleyhinə çıxışı bunu deməyə əsas verir.

Ermənistan hakimiyyətinə qarşı narazılıqların günü-gündən artması fonunda Qarabağ ermənilərinin də narazılığı Paşinyan üçün xoş sürpriz sayıla bilməz. Nikol gözəl anlayır ki, bir gün bu etirazlar İrəvanın mərkəzində hökumətə qarşı böyük mitinqlə nəticələnə bilər. Bu səbəbdən də bilərəkdən həm "günah keçisi" kimi separatçı rejimi göstərir, həm də Qarabağ ermənləri arasında parçalanmaya nail olur.

SAMVEL "PİROQ"DAN PAY UMUR

Samvelin isə arzusu Qarabağ ermənilərinə heç olmasa indiki vəziyyətdə "liderlik" etməkdir. Burada diqqət yetirilməsi məqam maliyyə resurslarıdır. Qarabağdan daşınan pul və qızıl ilə yanaşı, Ermənistana köçən ermənilərə ayrılan maliyyənin idarə edilməsi Samvelin iştahasını artırıb. Sirr deyil ki, bu tip məsələlərdə maliyyəyə kimin nəzarət edəcəyi əsas faktordur. Paşinyana bu işi öz adamına həvalə etmək daha sərfəlidir. Babayan da bu "piroq"dan öz payını almaq niyyətindədir. Elə bu səbəbdən də Qarabağ ermənləri etiraz aksiyası zamanı separatçı rejimin uzun illərdir talançılıq və korrupsiya ilə məşğul olduğunu, onun rəhbərlərinin özləri üçün böyük sərvət topladıqlarını dilə gətiriblər. Plana uyğun hərəkət edən aksiya iştirakçıları əslində Paşinyanın və Babayanın dəyirmanına su tökublər.

SARQSYANIN ÜZƏ ÇIXAN FIRILDAĞI

Qarabağ ermənilərinin aksiyasından sonra daha bir maraqlı məqam üzə çıxıb. Məlum olub ki, Ermənistanın sabiq prezidenti Serj Sarqsyan da Qarabağ hesabına külli miqdarda pul qazanıb. O, Ermənistanda fəaliyyət göstərən bankları separatçı rejimin buraxdığı istiqrazları almağa məcbur edib. Büdcə kəsiri ilə yanaşı, xarici dövlət borcu hər il artan Ermənistan üçün bu, böyük rəqəmdir. Banklar istiqrazlar üçün hökumətdən kompensasiya tələb edirlər. Tələb edilən pul 800 milyon dollardır. Ermənistan hökumətinin nümayəndələri Mərkəzi Bankın sədri ilə gizli görüş də keçiriblər. İndi məsələ "yuxarı tüpürürsən bığ, aşağı tüpürürsən saqqal" misalına çevrilib. Baş nazirin müavini Mher Qriqoryan kompensasiyanın ödənməsindən imtina edə bilmir. Hakim partiya isə buna kəskin etiraz edir. Əgər məbləğ ödənməsə, yeni etiraz dalğası başlayacaq. Ödənəcəyi halda isə separatçı rejimə dəstək durmaq məsələsi üzə çıxacaq. Hər iki halda Ermənistan hökuməti çıxılmaz dalana dirənib. Paşinyan isə bu məsələdən Serjə qarşı istifadə etmək niyyətindədir.

İRƏVANI QARIŞDIRAN DAVA PUL DAVASIDIR

Yuxarıda sadalananlardan da məlum olur ki, hazırda Qarabağın separatçı rejimi ilə Ermənistan hökuməti arasında maliyyə resurslarının idarə edilməsi məsələsində ixtilaf yaranıb. Paşinyan həm bu resursu separatçı rejimə qapdırmaq istəmir, həm də etirazların mənbəyi kimi Şahramanyanın dəstəsini göstərir. Şahramanyan isə maliyyə resurslarına nəzarəti itirməmək üçün "Qarabağ hökuməti fəaliyyət göstərir" tipli sərsəm açıqlamalar verir. Görünən odur ki, tərəflərin pul davası yaxın dövrdə yeni fazaya qədəm qoyacaq. Çünki Paşinyan bu resursu itirməmək üçün Şahramanyan və dəstəsinə qarşı cinayət işləri açdırmaq, həbsə göndərmək yolunu seçəcəyinə işarə edib. Artıq separatçı rejimin bir sıra üzvləri Ermənistanın təhlükəsizlik orqanları tərəfindən dindirilir...

Kaspi
ÜÇ ƏSKİN QƏZETİ

QƏZZA ÜÇÜN "Marşal planı"

Bir çoxları hesab edirlər ki, belə getsə, müharibəyə qonşu dövlətlər - Misir, Livan da qoşula bilər. Hətta gələcəkdə digər ərəb dövlətlərinin də müharibəyə qoşulması nəzəri cəhətdən mümkündür. Əksəriyyət onu da vurğulayır ki, regiondakı gərginlik beynəlxalq təhlükəsizliyə də təsir edə bilər.

AZƏR NURİYEV

Oktyabrın 7-dən start götürən İsrail-HƏMAS müharibəsi bir qədər səngisə də, hərbi əməliyyatların hələ bir neçə ay çəkə biləcəyi istisna edilmir. Bu qarşıdurma Ukrayna ilə Rusiya arasında gedən qanlı müharibədən sonra ən çox müzakirə olunan məsələlərdən biridir. Yaxın vaxtlarda tərəflər arasında sülhün əldə olunma şanslarına gəldikdə, bu ehtimalın sıfıra bərabər olduğu vurğulanır.

REGİONAL MÜHARİBƏYƏ ÇEVRİLMƏK TƏHLÜKƏSİ

Bəs Fələstin-İsrail münaqişəsi regional müharibəyə çevrilə bilərmi? Proseslərin gedişi göstərir ki, bu, tam mümkündür. Bir çoxları hesab edir ki, belə getsə, müharibəyə qonşu dövlətlər – Misir, Livan da qoşula bilər. Hətta gələcəkdə digər ərəb dövlətlərinin də müharibəyə qoşulması nəzəri cəhətdən mümkündür. Əksəriyyət onu da vurğulayır ki, regiondakı gərginlik beynəlxalq təhlükəsizliyə də təsir edə bilər.

Mövcud durum yalnız HƏMAS-la İsrail arasında qarşıdurma deyil. Bir çox dünya gücü, o cümlədən ABŞ, Rusiya və İran Qəzzadakı proseslərdə birbaşa maraqlıdır. Onlar da Yaxın Şərqdəki müharibənin öz maraqlarına uyğun nəticələnməsi üçün əllərindən gələni edirlər. Müharibənin daha çox ABŞ-nin öz strateji maraqlarını həyata keçirməsi üçün zəruri olduğu vurğulanır.

HƏMAS-IN İSRAİLƏ QARŞI QƏFİL HÜCUMUNUN SƏBƏBİ

Münaqişə ilə bağlı dünyaca məşhur RAND beyin mərkəzi maraqlı analiz ortaya qoyub. ABŞ-də yerləşən mərkəzin analizində əvvəlcə etiraf edilib ki, HƏMAS-ın İsrailə qarşı qəfil hücumunun səbəbi fələstinlilərə qarşı sərt iqtisadi siyasətlə bağlıdır. Müşahidəçilər hesab edirlər ki, əgər İsrail hakimiyyət orqanları Fələstinə qarşı ənənəvi yanaşmanı dəyişməsə, o zaman yeni hücumlar baş verə bilər. İsrailin Qəzza bölgəsinə iqtisadi rifah, hətta çiçəklənmə vəd verməsi istənilir. Lakin digər bir qrup hesab edir ki, müstəqil Fələstin dövləti qurulmadan belə yanaşmanın uğurlu olacağı mümkünsüzdür. Müharibə həm də İsrailin özündə iqtisadi itkilərə səbəb olur. Oktyabrın 7-də HƏMAS-ın başlatdığı münaqişə İsraili tənəzzülə sürükləyir və onun pul vahidi şekelin zəifləməsinə gətirib çıxarıb: iki həftədən az müddətdə şekel 4,8 faiz ucuzlaşıb. Düşüşün qarşısını almaq üçün İsrail Mərkəzi Bankı ehtiyatından 30 milyard sərf edib, lakin bu da kömək etməyib. Bununla bağlı "Fitch" agentliyi ölkənin kredit reytinqinin aşağı salınması riskini qeyd edib.

İsrail iqtisadiyyatının qeyri-sabitliyinə səbəb 300 min insanın hərbiyə çağırılması da ola bilər. İsrailin əhalisi cəmi 9 milyon nəfərdir və orduya çağırılanların çoxunun yaşı 40-dan azdır. Onlar ölkənin texnologiya sektorunda əsas işçi qüvvəsini təşkil edir ki, bu da ÜDM-nin təxminən beşdə biri deməkdir.

QƏZZA ZOLAĞI YENİ HONQ-KONQ OLMAYACAQ

Ali İqtisadiyyat Məktəbinin Beynəlxalq Münasibətlər kafedrasının dosenti Andrey Suzdaltsev hesab edir ki, "amerikalı ekspertlərin Qəzza zolağı üçün təklif etdikləri "Marşal planı"nın remeyki hesab oluna bilər". "Marşal planı" İkinci Dünya Müharibəsindən sonra Qərbi Avropa ölkələrində ödəmə qabiliyyətinə malik bazar yaratmağı nəzərdə tuturdu. Həm də Avropada solçu və kommunist hərəkatını zəiflətməli idi. Hədəfə də çatdı. Yeni plan da Qəzza zolağı sakinlərinin həyat səviyyəsinin yüksəldilməsi yolu ilə nəzəri olaraq terror strukturlarının, o cümlədən HƏMAS-ın kütləvi bazasını azaltmalıdır. Lakin Suzdaltsev hesab edir ki, Qəzza zolağından yeni Honq-Konq yaratmaq mümkün olmayacaq: "Sektor böyük ölçüdə beynəlxalq yardım hesabına yaşayır və insanlar buna öyrəşiblər. Yaxınlıqda nəhəng bazarı və investoru olan Çin də yoxdur. Qəzzaya sərmayə qoymaq, yəni müasir texnologiyalardan istifadə edən yeni müəssisələr açmaq üçün çox şey lazımdır - su və fasiləsiz enerji təchizatından tutmuş yüksək ixtisaslı işçi qüvvəsinə qədər. Bu problem dərhal olmasa da, qismən həll oluna bilər".

ABŞ-NİN SƏYLƏRİ

O da qeyd edilir ki, ABŞ diplomatiyası İsrailin imicini yaxşılaşdırmaq üçün səylər göstərir. Ağ Evdən xəbər verildiyi kimi, prezident Cozef Bayden regiona son səfəri zamanı İsraili münaqişəni tez bir zamanda həll etməyə inandırıb. Məlumatları dəfələrlə ABŞ hakimiyyət orqanlarının strateji qərarlarının əsasına çevrilmiş analitik mərkəz - Rand Korporasiyası isə hesab edir ki, İsrailin sərt strategiyadan əl çəkərək iqtisadi əsaslar formalaşdırılmasına keçməyinin vaxtı çatıb. Qəzzada təxminən Filadelfiya böyüklüyündə bir əraziyə yığılmış iki milyon sakin var, onların 80%-i yoxsul və 46%-i işsizdir. 108 min kubmetrə yaxın təmizlənməmiş kanalizasiya hər gün sektordan Aralıq dənizinə axır və içməli suyun əldə edilməsi çətinləşib. Rand layihəsinin Strategiya və Doktrina Proqramının direktoru Rahael Cohen yazır ki, "anklav dövlətindən məyus olan fələstinlilər İsraildən qisas almaq üçün HƏMAS kimi təşkilatlara üz tuturlar. İsrail təhlükəsizlik narahatlıqlarını əsas gətirərək Qəzzanın blokadası kimi məhdudiyyətlər tətbiq edir və orada yaşayış şəraiti daha da pisləşir və narazılıq artır. HƏMAS və buna bənzər təşkilatlar narazılıqdan istifadə edərək İsrailə hücum edir. İsrail də buna sərt formada cavab verir və ən yaxşı halda cəmi bir neçə illik nisbi sülhü "satın alır". Lakin bununla daha uzunmüddətli radikallaşmaya təkan verir". Tədqiqat müəllifi yazır ki, "təhlükəsizlik klapanı" olmadan Qəzza partlamağa məhkumdur. İsrail növbəti müharibənin qarşısını almaq ümidinə malik olsa, daha çətin bir şey etməli olacaq: Qəzzanı daha yaxşı bir şeyə çevirməli, qəzzalılara iqtisadi rifah şansı verməlidir. Koen hesab edir ki, bu, Qəzzanın sosial strukturunun yenidən qurulması deməkdir.

Ev almaq daha da ÇƏTİNLƏŞƏCƏK

Bakı şəhərində mənzillərin qiyməti sürətlə artır. Hesablamalara görə, bu il bahalaşma 10 faizdən çox olub. Ekspertlər bunu torpaq sahələrinin azlığı, yenitikililərin maya dəyərinin artması ilə əlaqələndirirlər. Bu gedişlə bahalaşmanın gələn il də davam edəcəyi proqnozlaşdırılır.

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2023-cü ilin III rübündə mənzil bazarında qiymətlər 2022-ci ilin III rübünə nisbətən 10.1 faiz bahalaşıb. Cari ilin III rübündə ilkin mənzil bazarında qiymətlər ötən ilin müvafiq dövrü ilə müqayisədə 7.8 faiz, təkrar mənzil bazarında isə 10.1 faiz artıb. İstər-istəməz sual yaranır: Mənzil qiymətlərini bu qədər bahalaşdıran nədir?

TORPAQ AZ, QİYMƏTİ DƏ BAHA

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev "Kaspi"yə açıqlamasında deyib ki, yenitikili binaların inşası üçün torpaq sahələri həddindən artıq bahadır: "Bakı şəhərində daşınmaz əmlak bazarında son illər qiymət artımları davam edir. Son üç ildə artımların daha çox olduğu müşahidə edilir. Yeni tikilən binalardakı qiymətlərin artmasına əsas səbəb paytaxtın mərkəz və mərkəzə yaxın ərazilərində çoxmənzilli yaşayış binalarının inşa olunması üçün torpaq sahələrinin olmamasıdır. Məhdud sayda torpaqların da qiyməti çox bahadır ki, bu da tikintinin maya dəyərini artırır. Əvvəlki illərdə tikinti şirkətləri torpağın bir sotunu təxminən 25-30 min manata alırdılarsa, hazırda bu qiymətlər 70-150 min manat arasında dəyişir. Hansı ki, 25-30 min kvadrat metrlik tikintinin aparılması üçün təxminən bir hektar torpaq sahəsi tələb olunur".

"ŞİRKƏTLƏR PİLOT LAYİHƏLƏRƏ ÜSTÜNLÜK VERİRLƏR"

Ekspert bildirib ki, pilot layihələr nəticəsində köhnə binaların sökülüb yerində daha yeni və baha mənzillərin inşası da qiymətlərə təsir edir: "Torpaq sahəsi məhdud olduğuna görə, tikinti şirkətləri daha çox pilot layihələr üzərindən tikinti işləri aparırlar. Tikilmiş yeni binadan həmin mənzil sahiblərinə ümumi sahəsi daha geniş olan tam təmirli mənzillər verilir. Bu da tikintinin maya dəyərinə təsir edir və satış qiymətini artırır. İstismar müddətini başa vurmuş evlər normal şərtlərdə daha ucuz olmalı idi. Çünki o binalar ipoteka predmetinə çevrilə bilmir, banklar tərəfindən girov götürülmür. Lakin söküldüyünə görə, onların qiymətlərində artımlar müşahidə olunur. Artımlara əsas səbəb bu mənzillər sökülərkən sahiblərinə verilən kirayə pulları və sökülüb yerində tikilən binada verilən mənzilin satış qiymətinin bazara iki dəfə daha baha təklif olunmasıdır".

HƏYƏT EVLƏRİ DƏ BAHALAŞIR

E.Fərzəliyevin sözlərinə görə, yeni qərar həm insanları, həm də tikinti şirkətlərini çətin vəziyyətdə qoyur: "Həmçinin, həyət evləri də belədir. Artıq fərdi həyət evlərinin tikintisi üçün də mərkəzə yaxın ərazilərdə torpaq sahələri qalmayıb. Bu baxımdan, əmlak bazarında qiymətlərin enəcəyi gözlənilmir. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təqdim etdiyi tələblərə əsasən, tikinti şirkətləri bina inşa edərkən həyətyanı sahələr yaratmalı, binalararası məsafələr qorunmalıdır. Bu da onu deməyə əsas verir ki, tikinti şirkətləri gələcəkdə əvvəlki kimi sıx binalar tikə bilməyəcəklər. Bina sayı azaldıqca, bu, satış qiymətlərinə təsirini göstərəcək".

Elnur Fərzəliyev

MÜŞTƏRİLƏRİN ƏKSƏRİYYƏTİ İPOTEKA İLƏ KÖHNƏ MƏNZİLLƏRƏ MARAQ GÖSTƏRİRLƏR

Əmlakçı Mülkədar Rüstəmovun fikrincə, qiymətlərdə hətta 30 faiz artım olduğunu da söyləmək mümkündür: "Əsas səbəb tikinti şirkətləri üçün mənzil tikməyə yerlərin azalmasıdır. Tikinti şirkətləri şəhərin Nəsimi, Yasamal, Nərimanov rayonlarındakı kütləvi söküntü işləri ilə maraqlanırlar. Buna səbəb həmin ərazilərin daha çox satılması ilə bağlıdır. Ən çox tələbat köhnə mənzil bazarındadır. Köhnə mənzil bazarında qiymət artımının səbəbi Türkiyədəki zəlzələdən sonra oradan ölkəmizə olan axındır. Gələn müştərilərin də əksəriyyəti ipoteka dəstəyi ilə köhnə mənzil bazarına maraq göstərir. Ona görə köhnə mənzil bazarında 70-ci illərdən qalmış ipotekaya tam yararlı mənzillərə tələbat yaranıb. Qiymətlər hətta 30 faizə qədər artdı. 2023-cü ilin sentyabr ayının məlumatına görə, üçotaqlı mənzillər 160-170 minə, ikiotaqlılar isə 125-140 min manata təklif olunur. Şəhərin mərkəzə yaxın istiqamətlərində, xüsusilə mikrorayonlarda mənzillərin bir kvadratmetri 1800-2000 manata təklif edilir. Halbuki əvvəl bu qiymətə şəhərin mərkəzindən ev almaq olurdu. Mərkəz ərazilərdə isə yeni tikililərdə mənzillərin bir kvadratmetri 2200-2300 manat olaraq dəyişir".

Mülkədar Rüstəmov

QİYMƏTLƏR NƏ ZAMAN SABİTLƏŞƏCƏK?

M.Rüstəmov qeyd edib ki, köhnə mənzillərin söküntüsü bitərsə, o zaman qiymətlərdə sabitlik ola bilər: "Mənzil bazarında qıtlıq var. Tələb çoxdur, təklif isə az. Düşünürəm ki, qiymət artımı 2024-cü ildə 10-15 faizdən də çox olacaq. Çünki hazırda bazarda mənzil tapmaq çox çətindir. Qıtlıq olduğu üçün qiymətlər də artır. Həm yeni, həm köhnə mənzil bazarında qiymətlərin artımı hər ay müşahidə olunur".

AZƏRBAYCAN İFAÇI SƏNƏTİ İLƏ HEÇ VAXT KASIB OLMAYIB. İSTEDADLI AKTYORLAR OLUB, HƏMİŞƏ DƏ OLACAQ

VAXT DA GEDİR, YAŞ DA...

Fotolar: Rüfət Mikayılov/Global Media Group

KİNO İLLÜZİYADIR...

Xalq artisti Ramiz Həsənoğlu: "Tamaşaçının ümumi səviyyəsini bir və ya üç adamla ölçmək olmur, təbəqələr var. Tamaşaçının zövqünü aşılamaq lazımdır, aşağılamaq yox. Reytinq, gəlir naminə tamaşaçının zövqünü korlamaq olmaz".

SÖHBƏTLƏŞDİ
Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

Xalq artisti Ramiz Həsənoğlu yaradıcılığına bir az təvazökar yanaşır. Baxmayaraq ki, adını kino, teatr və televiziya tariximizə yazdıran tamaşaların, filmlərin rejissoru kimi sevilir. Yeni işlərini isə təkcə özü yox, onun dəst-xəttini sevən və hər zaman darıxan tamaşaçılar səbirsizliklə gözləyirlər.

Xalq artisti "Kaspi"yə müsahibəsində görmək istədiyi işlərin, sənətlə bağlı arzularının çox olduğunu dedi.

BÖYÜK FASİLƏ OLDU

● Siz dörd il əvvəl "Azərbaycantelefilm"in direktoru təyin olunanda demişdiniz ki, son 10-12 ildə epizodik yaradıcılıqla məşğul olmusunuz, demək olar ki, yalnız kinoda çalışmısınız. Bəs təyinatdan sonra hansı dəyişikliklər baş verdi?

● Həyat bir yerdə durmur. İstər-istəməz biz onunla ayaqlaşmalıyıq. Hər günün öz şərtləri var və bu şərtlərə görə iş görürsən. Yazıçı oturub romanını yazır, rəssam fırçasını götürüb çəkir, bəstəkar musiqisini bəstələyir... Rejissorun işi aktyor da daxil olmaqla bunların hamısını hərəkətə gətirməkdir. Bu da vəsait, yer tələb edir. Bu mənada, rejissorluq bəlkə də dünyada ən çətin peşələrdən biridir. Bəli, bir müddət kifayət qədər böyük fasilə oldu. Bu fasilədə böyük teatrda, kinoda iş gördüm. Amma Azərbaycan Televiziyasında demək olar ki, iş görmədim. 2019-cu ildə bilavasitə rejissor kimi də iş görməyə başladım. "Nəsiminin son gecəsi" və Çexovun bir aktyorun taleyindən bəhs edən "Qu quşunun nəğməsi"ni Azərbaycan mühitinə gətirdik. Hələlik görülən işlər budur. Təbii ki, bundan əvvəl görülən işlərin davamı var. "Fatehlərin divanı"ndan söhbət gedir. Artıq İlqar Fəhmi ssenarini yazır, demək olar ki, material hazırdır. Yaxın vaxtlarda reallaşdırmağa başlayacağıq. Bu il mənim üçün və başçılıq etdiyim "Sabah" Yaradıcılıq Studiyası üçün əlamətdardır. Bu il "Sabah"ın 30 yaşı tamam oldu. "Topal Teymur"un efirə çıxmasının 40 ili, "Ac həriflər"in 30 illiyi, "Nigarançılığ"ın 25 ili tamam oldu. Fərəhlənirəm ki, bu işləri sənət dostlarımla birlikdə görə bilmişəm.

● İndicə sadaladığınız, belə deyim, darıxmaqdan tamaşaçının burnunun ucu göynədiyi teletamaşalar indi artıq yoxdur. Rejissor da var, bəlkə aktyor qıtlığıdır?

● Yaxşı sualdır... Nəzərdə tutduğunuz əsərlər elə bir zamanda yaranmışdı ki, Azərbaycan Televiziyası teleməkanda yeganə kanal idi. O kanalda yaranan hər bir işin öz məsuliyyəti vardı. Kanalların sayı artandan sonra tamaşaçının imkanları da artdı. Bu da o demək deyil ki, keyfiyyətin artmasına səbəb olub. Tamaşaçının ümumi səviyyəsini bir və ya üç adamla ölçmək olmur, təbəqələr var. Tamaşaçının zövqünü aşılamaq lazımdır, aşağılamaq yox. Reytinq, gəlir naminə tamaşaçının zövqünü korlamaq olmaz. Azərbaycan Televiziyası böyük bir fabrikdir. Kinostudiyadan fərqi ondan ibarətdir ki, kinostudiya filmlər çəkməklə məşğuldur. Ciddi telekanalın məqsəd və öhdəlikləri isə çox böyükdür. İctimai-siyasi, elmi-kütləvi, musiqili, idman proqramları, tamaşalar, telefilmlər var. Onların hamısı ağzını açıb gözləyir - vəsait tələb edir. Tutaq ki, biz hansısa tamaşanı imkanlardan çıxış edib hazırlayırıq. İndi yaradıcı adamdan "niyə bunlar yoxdur?", "niyə yaranmır?" soruşmaq da düz deyil. Səbəbləri çoxdur. Təkcə onu deyə bilərəm ki, hazırda Azərbaycan Televiziyasında görülən işlər yeni quruluşların yaranmasına, serial çəkilişlərinə, bədii quruluşlara imkanlar açır. Rəhbərlik bizim üçün o yolları aydınlaşdırır.

"KİNO İLƏ BAĞLI MƏSƏLƏ KİFAYƏT QƏDƏR QƏLİZ VƏ CİDDİDİR"

● Rejissorlar çox vaxt öz "qanlarından" olan insanlarla bir komandada işləməyi xoşlayırlar. Vaxtilə işlədiyiniz insanlar artıq yoxdur. Komandanı necə formalaşdıra bilirsiniz?

● Kadr qıtlığı hiss eləmirəm. Ola bilsin, sənətin sahələrinin inkişaf eləməsi ilə bağlı yeni, daha inkişaf etmiş peşələrə ehtiyac var. Bəlkə səslə, qrafika ilə, avadanlıqla bağlı bir az qıtlıq ola bilər, amma yaradıcı personal-rejissor, operator, yazıçı, ssenarist həmişə olub, olacaq da.

● Eyni sualı kinoya da aid edirəm. Avqust ayında Azərbaycan kinosu 125 illik yubileyini qeyd etdi. Bu sahədə müəyyən kadr və struktur dəyişiklikləri var. Bəs kino necə, varmı?

● Mənə elə gəlir ki, kino ilə bağlı məsələ kifayət qədər qəliz və ciddidir. Biz sovet dövrünün qanunları ilə xeyli film çəkdik. Onların uğurluları da, uğursuzları da oldu. Bir strategiya vardı və ona uyğun filmlər çəkildi. Kino Nazirliyi vardı, sonra onu dəyişib agentlik etdilər, sonra başqa bir quruma çevirdilər. Nəticədə kino Mədəniyyət Nazirliyinin şöbələrindən biri kimi qaldı. Kinonu istiqamətləndirən və irəli apara bilən insanların əlindən o imkanlar alındı. Mən problemi bunda görürəm. Düzdür, son zamanlar müəyyən addımlar atılır, amma yenə hesab edirəm ki, kino kiminsə əlinə baxmamalıdır, hansısa nazirliyin nəzdində çalışmamalıdır. Azərbaycan kinosunun buna haqqı da çatır. Məncə, kinomuz yenidən toparlanmalıdır.

> *"Fikirləşəndə, mən bu işlərin tez bir zamanda yoluna düşəcəyinə inanmıram. Bu mənada o qədər də optimist deyiləm."*

"O QƏDƏR DƏ OPTİMİST DEYİLƏM"

● "Cavid ömrü", "Sübhün səfiri" kimi filmlərinizdən sonra hansı klassiklərin taleyini ekranlaşdırmağı düşünürsünüzmü?

● Hər iki filmi Anarın ssenarisi əsasında çəkmişdim. Anarın Cəfər Cabbarlı ilə bağlı bir ssenarisi də var və artıq qəbul olunub. Ancaq o filmin çəkiləcəyi ilə bağlı o qədər də optimist deyiləm. Kino vəsaitə bağlıdır. Çox istərdim o film çəkilsin. Çünki vaxt da, yaş da gedir. Kino həm də fiziki qüvvə tələb edir. Düzdür, Qərbdə rejissorlar var ki, yaşı 90-a yaxınlaşanda da kino çəkə bilirlər. Amma fikir verin, bizdə kinoda çalışan adamların orta yaşları, həyatdan köçən vaxtları nə vaxtdır? Çoxları 70-i adlamırlar. Çünki kino ağır sənətdir - həm fiziki, həm mənəvi, həm psixoloji cəhətdən ağırdır. Kino məsuliyyətli bir sənətdir, can dözmür. Fikirləşəndə, mən bu işlərin tez bir zamanda yoluna düşəcəyinə inanmıram. Bu mənada o qədər də optimist deyiləm. Bilirsinizmi, istedadlı cavanlarımız yetişir, yetişəcək və kinomuza gələcək, amma təcrübəsi olan adamların sayı sürətlə azalır. Yeni həvəslə gələn gənclər də gərək təcrübə toplasınlar ki, ortaya iş qoya bilsinlər.

"MƏN XOŞBƏXTƏM Kİ..."

● Bayaq xatırladınız ki, "Topal Teymur"un 40 illiyidir. Bu, bir insan ömrüdür... O filmdəki aktyorların çoxu artıq həyatda yoxdur.. İndi onlarsız çətin olmur?

● "Topal Teymur"un yubileyini yadırğamışdım. Tamaşanın yubileyini vaxtilə İstanbuldakı konsulumuz olan İbrahim Nəbioğlu "facebook"dakı statusu ilə yadıma saldı. Teletamaşanın premyerası 1983-cü ilin may ayında olub. Mən film haqqında rəhbərliyə də məlumat verdim. Dilarə Səlimin aparıcılığı ilə "Görüş yeri" verilişi bu aydan etibarən ekrana qayıdır. Verilişin buraxılışlarından biri "Topal Teymur"a həsr olunacaq. Təəssüf ki, o aktyorların əksəriyyəti - Hamlet Xanızadə, Hamlet Qurbanov, Amaliya Pənahova, Ramiz Novruzov artıq həyatda yoxdur. Çox az adam qalıb...

Mən xoşbəxtəm ki, vaxtilə onlarla işləməyə imkan tapmışam və o tamaşalar yaranıb. O aktyorların hər birinin öz yeri var. Mən təəssüf etmirəm ki, "Fatehlərin divanı"nda Teymurləngi Fuad Poladovdan başqa kimsə oynaya bilsin. Təəssüf etmirəm ki, İldırım Bəyazidi Hamlet Qurbanovdan başqa kimsə oynasın. Hər bir rejissorun öz görümü var. Eyni əsərə ayrı-ayrı rejissorlar müxtəlif aktyorları çağıra və hər biri də öz seçimində haqlı ola bilər. Bu mənada mən indi də hesab edirəm ki, yenidən "Teymurləng"ə müraciət edəsi olsam, həmin aktyorları indi həyatda və formada olan aktyorlar arasından tapa biləcəyəm. Azərbaycan ifaçı sənəti ilə heç vaxt kasıb olmayıb. İstedadlı aktyorlar olub, həmişə də olacaq. Yaxşı əsər, yaxşı ifa və quruluş gec-tez öz tamaşaçısını tapır. Mənə gəldikdə, bütün ömrüm, həyatım sənətin içində keçib, bir-birinə yoğrulublar. Görülən işlər nə qədər özünü yaşadacaq, bu, gələcəyin işidir. Bütün işlərim mənim üçün qiymətlidir. Hər bir çəkilən əsərdə rejissorun möhürü var. Amma mənə elə gəlir ki, məni adekvat şəkildə ifadə edən "Aç həriflər"dir. Orada ironiya da, ağrı da, sevgi də var.

● Qarabağ artıq işğaldan azad olunub. Qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıdış məsələsi də aktuallaşıb. Baş verən hadisələr fonunda yaşadığınız deportasiyanın bədii həllini düşünürsünüzmü?

● Əslində artıq o proses bu və ya digər şəkildə gedir. "Sabah" yaradıcılıq studiyasında təkcə qərbi azərbaycanlılar haqqında deyil, işğaldan azad olan torpaqlarımız haqqında da verilişlər hazırlanır. Ancaq elə hadisələr və tarixlər var ki, onların təqdimatında çox tələsmək lazım deyil. Bunun üçün ictimai-siyasi, publisistik proqramlar var. Tamaşaçının açlığını onlarla ödəmək olar. Siqləti yüksək olan bədii əsərlər üçün tələsmək lazım deyil. 1941-45-ci il müharibəsindən sonra yaranan əsərlərə baxın. "Tütək səsi", "Bizim Cəbiş müəllim" filmlərini götürək. Bu ekran əsərləri illər sonra yarandılar.

● Polşanın kinometri Anjey Vayda müsahibələrinin birində "Mən 30 yaşına qədər həyatda nələr olduğunu düşünməmişdim. Yalnız 60 yaşında onun təsirlərini hiss etməyə başladım" deyib. Eyni sualı sizə ünvanlasam...

● Maraqlıdır... Əslində Vayda hər bir yaradıcı adamın içində o yaşa gəlib çatana qədərki düşündüklərini ifadə edib. Mən də həmin şeyləri deyə bilərəm. Sonradan bunları başa düşürsən. Balzakın "Şaqren dərisi" əsərindəki kimi: istəklər artdıqca, o dəri daralır. Yəni hər birimizin bir şaqren dərisi var. O nə vaxtsa quruyacaq. Sənət adamlarının da şaqren dərisi ömürlərinin uzun olmasına baxmayaraq, daha sürətlə quruyur. Çünki onlar bir neçə adamın taleyindən söhbət aparırlar. Hər bir filmə həyatlarının müəyyən bir hissəsini qoyurlar.

● Siz gənclikdə olduğu kimi kinematoqrafın həyatı dəyişə biləcəyinə inanırsınız?

● Yox, kino, ümumilikdə sənət illüziyadır. Reallıqlara heç nə qalib gələ bilmir. Çexovun bir fikri var: "İnsanda hər şey gözəl olmalıdır". Gözəl olan insan sənətlə məşğul olanda həyat da gözəlləşir. Məsələn, sənətkarlar var ki, həyatda çox mənfi təsir bağışlayır, amma onların sənətləri ölməz idi. Sənət dünyanı mənən zənginləşdirmək, harmonik etmək üçün yaranıb.

● Əgər bir gün bir tamaşaçı kimi qarşınızı kəsib "Mən "Qatarda" kimi tamaşa istəyirəm" desəm, nə cavab verərsiniz?

● Çox yaxşı arzudur... "Qatarda" öz dövrünün tələbi ilə o zaman yaranan bir tamaşa idi. Kaş elə bir imkan yenə düşsün və dövrün, zamanın nəbzini tutan bir əsər ortaya çıxsın ki, mən onu səhnələşdirə bilim!

İSİNMƏK ÜÇÜN müqavilə bağla!

Qarşıdan yeni istilik mövsümü gəlir. Bununla əlaqədar "Azəristiliktəchizat" ASC xidmət göstərdiyi sakinlərlə müqavilələr bağlamağa başlayıb. Lakin açıq qalan sualların çoxluğu vətəndaşlarda narahatlıq yaradır.

KÖNÜL CƏFƏRLİ

"Azəristiliktəchizat" ASC əhali istehlakçı qrupu ilə müqavilələrin bağlanılmasına başlayıb. Belə ki, Nazirlər Kabinetinin 5 sentyabr 2023-cü il tarixli qərarı ilə təsdiq olunmuş "İstilik enerjisindən istifadə qaydaları"nın 1.4-cü bəndinə əsasən istilik və isti su təchizatı xidmətləri enerji təchizatı müəssisəsi ilə istehlakçı arasında bağlanılmış müqavilə əsasında həyata keçirilməlidir. İstehlakçılar zəruri sənədləri - mənzil mülkiyyətçisinin şəxsiyyət vəsiqəsi və çıxarışın surətini "Azəristiliktəchizat"ın əməkdaşlarına təqdim etməklə müqavilə bağlaya bilərlər.

AÇIQ QALAN SUALLAR

Məlumatda qeyd edilən bir məqam xüsusilə diqqət çəkir: Müqavilə bağlanılmadığı halda istilik təchizatı xidmətlərindən istifadə qeyri-qanuni hesab olunacaq. O zaman sual yaranır - bəs abonent müqavilə bağlamaq istəmirsə? Ümumiyyətlə, abonentlə müqavilə bağlanılmasında məqsəd nədir? Bu yenilik sözügedən sahəyə hansı dividendlər verəcək?

Əsas məqam odur ki, "Azəristiliktəchizat" müqaviləni bağlamaq istəməyənlərlə bağlı hansı alternativ tədbir görüləcəyinə dair heç bir məqama toxunmayıb.

Sirr deyil ki, hazırda Bakı şəhərində istilik təchizatı ilə bağlı əksər binalarda sistem ümumidir. Yəni bir mənzildə istiliyi kəsmək üçün ən azından bütöv bir blokun istiliyi kəsilməlidir. Borcu olan, müqavilə imzalamayan abonentin fərdi qaydada istiliyini kəsmək praktiki olaraq mümkün deyil.

SAKİN MÜQAVİLƏNİ İMZALAMASA...

Qaranlıq qalan suallarla bağlı sorğumuzu cavablandıran "Azəristiliktəchizat" ASC-nin mətbuat xidmətinin rəhbəri Elvin Basqallı bildirdi ki, öz maraqları daxilində olan müqaviləni imzalamaqdan sonadək imtina edən sakinlərlə bağlı aidiyyəti üzrə addım atılacaq: "Biz sakinlərin bu müqavilədən imtina edəcəyini gözləmirik. Amma kimsə hansısa fərdi səbəbdən imzalamaq istəməsə, onun istilik enerjisindən istifadəsi qeyri-qanuni hesab ediləcək. Bu halda binanın layihələndirilməsindən asılı olaraq fərdi qaydada həmin abonentin istilik təchizatını dayandırmaq mümkün olsa, dayandırılacaq. Yox, mümkün olmasa, ən son halda qurum həmin abonenti məhkəməyə verəcək".

BİR NƏFƏRƏ GÖRƏ HAMI CƏZALANDIRILACAQ?

E.Basqallı qeyd edib ki, bir nəfər abonentə görə başqa abonentlərin istilik sisteminin kəsilməsi olmayacaq:

"Amma yenə qeyd edirəm ki, bu hallar gözlənilən deyil. Müqavilədə sakinlərin ziyanına olacaq bir durum yoxdur ki, imzalamaq istəməsinlər. Ümumilikdə biz 180 mindən çox mənzilə istilik veririk. Müqavilə bağlanılması prosesinə artıq başlanılıb. Bu proses bir qədər zaman alacaq".

Bəs ekspert necə düşünür? Bu müqavilədə sakinlərin ziyanına və xeyrinə olacaq məqamlar hansılardır?

MƏQSƏD ABONENT SAYINI DƏQİQLƏŞDİRMƏKDİR

Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı bildirib ki, "Azəristiliktəchizat" ASC sovet dövründən qalan binalara xidmət göstərir, çox az sayda yenitikililərdə mərkəzləşmiş istilik sistemindən istifadə edilir: "Əksər hallarda yeni tikilən binalarda kombi sistemindən istifadə olunur. Köhnə binalarda istilik təchizatını "Azəristiliktəchizat" ASC həyata keçirir. Keçid dövründə istilik qurğuları, radiatorlar və hətta boru xətləri sökülüb atılmışdı. Sonra "Azəristiliktəchizat" ASC yenidən həmin binalara istilik təchizatını vermək üçün bu problemi aradan qaldırdı. Amma bəzi binalarda bu istilik boru sistemləri bərpa edilmədi. Buna görə də fərdi qaydada hər bir mənzil sahibi ilə ayrılıqda müqavilə bağlanılması nəzərdə tutulub. Müqavilənin məzmunu isə Nazirlər Kabineti tərəfindən müəyyən edilib.

Elvin Basqallı

Bu müqavilənin bağlanmasında məqsəd abonentlərin dəqiq siyahısının müəyyən edilməsidir. Artıq texniki siyahıyaalma prosesi başa çatacaq".

MÜQAVİLƏDƏN İMTİNA MÜƏYYƏN MƏSULİYYƏT YARADA BİLƏR

R.Osmanlı qurumla abonentlər arasında bağlanacaq müqavilənin xidmət keyfiyyətinə təsiri barədə də danışıb: "Bəzən qurumlar bu kimi hallarda göstərilən xidmət səviyyəsinin, keyfiyyətinin artırılmasından çox, digər istiqamətlərə diqqət yönəldirlər. Keyfiyyəti artırmaq dedikdə sənədləşmə keyfiyyətinin deyil, göstərilən xidmətin əsas götürüləcəyinə ümid edirəm.

Müqavilə bağlamaq istəməyən abonentin məcburi qaydada cərimə olunmasından söhbət gedə bilməz. Xidmət abonentə təklif olunur, vətəndaş da bu xidməti istəsə alır, istəməsə almır. Yox, əgər vətəndaş göstərilən xidməti alır, lakin müqavilə bağlamaqdan imtina edirsə, bu halda cərimə nəzərdə tutulur".

Ramil Osmanlı

“HALAL”A HARAM QATANLAR

“Halal” adı altında satılan məhsulların keyfiyyəti ilə bağlı müəyyən narazılıqlar var. Artıq müvafiq dövlət qurumları da bu sahədə problemlərin olduğunu etiraf edirlər. Ekspertlər isə bildirirlər ki, “halal” sertifikatı ilə bağlı vahid standartlar hazırlanmalıdır.

İLHAMƏ ƏBÜLFƏT

Azərbaycan Standartlaşdırma İnstitutunun baş direktoru İlham Bayramov sahibkarların “halal brend”, “orqanik məhsul” adlarından sui-istifadə etdiklərini bildirib: “Bu sahədə problemlər var. Bu məsələlərə inamsızlıq, etibarsızlıq da hökm sürür. Çünki sahibkarlarımız “halal brend”, “orqanik məhsul” adlarından sui-istifadə edir və çaşqınlıq yaradırlar. Biz elə bir iş görməliyik ki, istehlakçılarımız “halal” sertifikat almış məhsula tam inansınlar. Maraqlıdır ki, Yaponiya, Almaniya, Koreya kimi ölkələrdə halal məhsula tələbat artıb, nəinki bizim kimi müsəlman ölkələrdə. Buna görə də biz çalışmalıyıq və elə bir mexanizm işləməliyik ki, halal məhsul istehlak etmək istəyən vətəndaşımız məhsuldan rahat şəkildə, əminliklə istifadə edə bilsin”.

Ceyhun Məmmədov

Bəs kimlər bu cür sui-istifadə hallarına yol verirlər?

“HALAL” SERTİFİKATI İLƏ BAĞLI STANDARTLAR OLMALIDIR”

Deputat Ceyhun Məmmədovun sözlərinə görə, bunun üçün öncə standartlar hazırlanmalıdır: “Bu standartlar dünyada var. Məhsulun üzərinə saxta “halal” adı yazılmamalıdır. Bu gün Azərbaycanda kim istəyir, bunu yazır. Bəzən hansısa şəxslər buna “halallıq” verir. Əksər müsəlman ölkələrində bununla bağlı qaydalar var və hesab edirəm ki, həmin qaydaların ölkəmizdə dəqiq tətbiqi ilə biz müəyyən işləri görə bilərik. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi də bu məsələdə böyük məsuliyyət daşıyır. Qurum bu cür problemlərin yaranmamasına çalışmalıdır. “Halal” sertifikatına müəyyən normalar, standartlar əsasında icazə verilməlidir”.



“MƏHSULUN İSTEHSALA ÇATDIRILMASINA QƏDƏR İZLƏMƏ OLMALIDIR”

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyir ki, Dünya Halal Konqresində iştirak etdiyi zaman şahidi olub ki, 53 ölkədən nümayəndələr halal məhsulun hazırlanması üçün qida əlavələri barədə vahid qərara gələ bilməyiblər: “Bəzi müəssisələri məhsulun üzərinə “halal” adı yazmaqla müştəri cəlb edir. Əslində, “halal” sertifikatı yalnız halal standartları əsasında məhsul istehsal edilən müəssisələrə verilə bilər. Dünyada il ərzində halal məhsullara 30 trilyon pul xərclənir. Halal məhsullar həm də ekoloji təmiz məhsullar hesab olunur. Amma bu gün ölkəmizdə saxta “halal” adı altında məhsullar istehsal edilir. Azərbaycanın əmtəə bazarında “halal” adıyla satılan məhsulların 90 faizə qədəri halal deyil. Keçən ilin sonunda Azərbaycan Standartlaşdırma İnstitutuna bununla bağlı təkliflər verildi. Təəssüf ki, bizim təkliflər qəbul olunmadı. Hazırda sadə, standartları tam olmayan “halal” standart mövcuddur. Əgər bir müəssisə fəaliyyətini kreditlə davam etdirirsə, ona “halal” sertifikatı vermək düzgün deyil. Biz tələb qoyduq ki, müəssisələrdə onlayn izləmə sistemi varsa, belə yerlərə “halal” sertifikatı verilsin. Məhsulun istehsala çatdırılmasına qədər izləmə olmalıdır”.

Ekspert deyir ki, halal məhsullarla bağlı çağırışlara diqqət yetirilməlidir: “Halal” sertifikatın verilməsi pulsuz və şəffaf olsun. Saxta “halal” adı ilə ölkəyə məhsul gətirən və istehsal edən şəxslər də ifşa olunmalıdırlar”.

Eyyub Hüseynov

“BU, SERTİFİKATDAN ƏVVƏL DAHA ÇOX VİCDAN MƏSƏLƏSİDİR”

“Heydər məscidi”nin imamı Rüfət Qarayevin sözlərinə görə, bu məsələ sertifikatdan və lisenziyadan əvvəl vicdan məsələsidir:

“Əgər bir insanın vicdanı, imanı yoxdursa, istər-istəməz müəyyən biznes gəlirlərini, öz şəxsi mənfəətini düşünərək müəyyən bir zamandan sonra insanları hansısa formada aldadacaq.

Allah Rəsulunun dövründə bir şəxs buğda satırdı. Bu zaman nəm buğdaların üzərinə quru buğdalar yığılmışdı. Allahın Rəsulu gəlir həmin buğdanın altındakı nəm buğdaları üzə çıxarır və deyir ki, bizim ümmətimizi, insanlarımızı aldadan bizdən deyil. Yəni, insanları aldatmaq olmaz. Dediyim kimi, bu, bir vicdan məsələsidir. İnsanlıq sadəcə qidanın təmizliyində deyil. Allahını, Rəsulunu tanıyan, onu özünə örnək seçən insan bir müsəlman kimi həyatına davam edər. Gördüyü, etdiyi işlərdə, əməllərdə heç vaxt aldatmaz. Baxmayaraq ki, hansısa bir qurumdan, təşkilatdan bir insan gedib lisenziya ala bilər. Ola bilsin, həmin vaxt təşkilat, qurum o işin halallığını təsbit etsin. Amma sonrakı mərhələdə o insanlar müxtəlif yollarla bu qaydaları poza bilərlər”.

Rüfət Qarayev

Axund qeyd edib ki, məhsul üzərində “halal” sözü yazmaq məsələnin həlli deyil: “Ola bilsin ki, həqiqətən də vicdanlı, imanlı insanlar var. Heç halal yazmadan belə işlərini halal görürlər. Yaxud da üzərinə halal yazır, halallığı da tam olaraq qoruyub saxlayırlar. Onun üçün də məsələ tam vicdan məsələsidir. Bir müsəlman mömindirsə, çalışacaq özünə rəva bilmədiyi şeyi digər insanlara da rəva görməsin”.

BAĞÇALARLA BAĞLI DAHA BİR YENİLİK GÖZLƏNİLİR

Əvvəl bağçalara ərzaq gəlirdi və orada yeyinti faktları ilə bağlı söz-söhbətlər olurdu. Yeni format reallaşsa, bu dəfə də nazirliklə bağçaları qida ilə təmin edən yeyinti şirkətləri arasında sövdələşmələr ola bilər. Ona görə də bu prosesə xüsusi həssaslıqla yanaşmaq lazımdır.

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bağçalarda vahid menyu tətbiq ediləcək. Artıq 196 bağçada pilot qida layihəsi tətbiq olunub. Bunu Məktəbəqədər Təhsilin Təşkili və İdarəolunması Sektorunun müdiri İlahə Rəsulova deyib. O bildirib ki, hazırda bununla bağlı valideynlərdən və layihənin tətbiq olunduğu bağçaların rəhbərliyindən toplanan sorğular emal edilir. Bəs vahid menyu tətbiqindən sonra bu sahədə hansı dəyişikliklər gözlənilir? Ümumiyyətlə, bu addım nəyə hesablanıb?

SORĞULAR APARILIR, QƏRAR VERİLƏCƏK

Elm və Təhsil Nazirliyindən sorğumuza cavab olaraq bildirilib ki, layihə hələlik sınaq mərhələsindədir, bir müddət sonra qərar veriləcək: "Bildiririk ki, uşaq bağçalarında, uşaq evlərində və məktəbəqədər uşaq sanatoriyalarında uşaqlar üçün qida normaları Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli, 103 nömrəli qərarı, qida normalarına nəzarət, uşaqların gün ərzində qidalanması, qidaların keyfiyyətinə nəzarət və sanitar-gigiyenik qaydalara əməlolunma Nazirlər Kabinetinin 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli qərarı ilə təsdiq edilmiş "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi" ilə tənzimlənir. Hazırda 196 uşaq bağçasında pilot qida layihəsi tətbiq olunub. Bununla bağlı valideynlərdən və layihənin tətbiq olunduğu bağçaların rəhbərliyindən toplanan sorğular təhlil edilir. Bundan sonra qərar veriləcək ki, layihə genişləndirilsin, yaxud dayandırılsın və ya modifikasiya edilsin. Pilot qida layihəsinin tətbiq olunmadığı bağçalarda qanunvericiliyə uyğun olaraq xüsusi menyu var və uşaqların qidalanması buna uyğun aparılır. Pilot qida layihəsi Bakının dörd rayonu və üç regionunu əhatə edir, dövlət bağçalarında həyata keçirilir. Pilot qida layihəsi tətbiq olunan yerlərdə həm valideyn, həm də direktorlarla sorğular aparılır".

KOR-KORANƏ MENYUNUN QƏBULUNDANSA...

Qida eksperti Fərid Səfərov bildirib ki, bağçalar üçün nəzərdə tutulan vahid menyu zülallar, yağlar və karbohidratlardan təşkil olunmalıdır: "Hər bir halda pilot layihənin olmağı müsbət bir haldır. Ona görə ki, əvvəllər dövlət bağçalarında kor-koranə menyular tətbiq olunurdu və uşaqlara nə gəldi verilirdi. Artıq indi vahid bir sistemlə formalaşacaq. Uşaqlar bizim gələcəyimizdir və onların sağlam olması üçün mental sağlamlıqla yanaşı, qida da çox vacibdir. Ona görə də düşünürəm ki, bu layihə uğurlu olacaq. Vahid menyuda mütləq şəkildə uşaqların gündəlik enerjisini saxlamaq və təmin etmək üçün zülallar, yağlar, karbohidratlar olmalıdır. Menyu bunlardan təşkil olunmalıdır. Bu qidaların balansı qorunsa, həm uşaqlar, həm də cəmiyyətimiz üçün yaxşı olacaq".

Fərid Səfərov

DÖVLƏT SABİT BİR MENYU HAZIRLAYIR Kİ...

Təhsil eksperti Qoşqar Məhərrəmov deyib ki, standartlaşma qanunsuzluqların qarşısını almaq üçün yaxşı addımdır: "ABŞ təcrübəsinə baxsaq görərik ki, məktəblərin və bağçaların bağlı olduğu bölgələr var. Menyu bir yerdən tərtib olunur. Azərbaycanda dövlət bağçalarında da bu təcrübə tətbiq ediləcək. Özəl bağçalar isə müstəqildir. Dövlət sabit menyu hazırlayır ki, müəyyən standartlar olsun. Bu zamana qədər bağçaların təsərrüfat işlərində çoxlu yeyinti halları var idi. Dövlət bu sistemi gətirir ki, hansı bağçaya nə qədər məmulat, ləvazimat, yemək lazımdır, bəlli olsun".

Qoşqar Məhərrəmov

"YEMƏK ŞİRKƏTİ İLƏ MÜQAVİLƏLƏR İMZALANACAQ"

Q.Məhərrəmovun sözlərinə görə, bağçalar yemək şirkətləri ilə razılığa gəlsələr, bu, daha məqsədəuyğun olar: "Güman edilir ki, bağçaların yemək məsələsi bir mərkəzdən təşkil ediləcək. Yəni bir "ketrinq" şirkəti 15-20 bağçanın yemək işini təşkil edəcək və nazirlik də həmin şirkətlə razılışacaq. Bu yanaşma müasir sistemdir. Sadəcə, burada bir nüans var. Əvvəl bağçalara ərzaq gəlirdi və orada yeyinti olurdu. İndi isə nazirliklə həmin şirkət arasında yeyinti ola bilər. Ona görə bu prosesə xüsusi ehtiyat və diqqət göstərmək lazımdır. Yemək və təsərrüfat çox həssasdır".

Təhsil ekspertinin fikrincə, bütün proseslər şəffaf olsa, bu yenilik uğurlu alına bilər: "Yeməklər həm keyfiyyətli olmalı, həm də uşaqların yaşına, sağlamlığına uyğun hazırlanmalıdır. Maliyyə səmərəliliyi təmin edilməli, burada şirkət də qazanmalıdır. Şirkətlər nazirliklə tenderə girəcək. Tender də düzgün və şəffaf aparılmalıdır. 196 bağçada sabit menyu tərtib olunsa, nahardan bir saat əvvəl isti yemək gətirilərək bağçalara təqdim edilsə, bu, daha gözəl bir praktikadır. Nəinki bütün bağçalara ərzaq göndərilsin ki, eyni ərzaqdan eyni yemək bişirilsin. Amma hər halda standartlaşma çox yaxşı addımdır. Çünki standart olmayanda bağçalarda yeyinti halları daha çox olur".

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
Global Media Group

Baş redaktor
İlham Quliyev

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rufik İsmayılov, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov

Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2824
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

RESTORANLARDA MİLYONLAR XƏRCLƏYİRİK

Çayxor millət olmağımıza baxmayaraq, artıq insanlarda kofe mədəniyyəti formalaşıb. Səhər yeməyi də həmçinin. Məsələn, bundan öncə bizim mentalitetimizdə səhər yeməyinə getmək yox idi. Amma indi bazarda tələbat var. Bu tendensiyaları yeni nəsil inkişaf etdirir.

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Pandemiyadan sonra Bakıda restoran biznesi özünə gəlməyə başlayıb. Şəhərin mərkəzində fəaliyyət göstərən ictimai iaşə obyektlərində yer tapmaq mümkün deyil. Hətta bəzi restoranlar sıxlığın qarşısını almaq üçün müştərilərə vaxt limiti də tətbiq edirlər. Bu sahədəki inkişafı Dövlət Statistika Komitəsinin hesabatı da təsdiqləyir. Bildirilir ki, 2023-cü ilin sentyabr ayında Azərbaycanda əhali kafe və restoranlara 169 milyon 597 min manat vəsait xərcləyib. Bu göstəricinin hə1cmi ötən ilin sentyabr ayı ilə müqayisədə 33.9 milyon manat çoxdur.

Maraqlıdır, bu artım nəyin göstəricisidir? Bizim insanlarda da restoranda nahar, şam etmək vərdişi formalaşmağa başlayıbmı? Ümumiyyətlə, bu sahənin gələcəyi necə proqnozlaşdırılır?

"Kaspi" qəzeti suallara cavab tapmaq üçün restoran sahibləri və mütəxəssislərlə söhbətləşdi.

MÜASİR GƏNCLİK YEMƏK MƏDƏNİYYƏTİNİ DƏYİŞİR

Marketinq və biznesin idarə edilməsi üzrə mütəxəssis Anar Zeynalov deyir ki, restoranlara ödənilən pulların artmasının ilkin səbəbi ödənişlərin birbaşa kassaya vurulmasıdır: "Əvvəllər restoranlar işləyirdi, qəbz verilmirdi. Rayonlarda ümumiyyətlə, qiyməti kağıza yazırdılar. İndi şəffaflıq olduğuna görə, rəqəmlər getdikcə artır. Bununla yanaşı, qida məhsullarının qiymətinin artması da rəqəmlərə təsir edir. Bakının rayonlarında, regionlarda da restoranlar, hotellər açılır. Ona görə də bu rəqəmin bir ildə 20-25 faiz artması normaldır".

Son illər restoranlarda səhər yeməyi ənənəsi də diqqət çəkən nüanslardandır. Xüsusilə həftəsonları bron etməmiş səhər yeməyi üçün yer tapmaq mümkün deyil. Mütəxəssis deyir ki, tendensiya hər il dəyişir: "Məsələn, beş il öncə Azərbaycanda kofeşopları tapmaq çətin idisə, indi hər yerdə var. Çayxor millət olmağımıza baxmayaraq, artıq insanlarda kofe mədəniyyəti formalaşıb. Səhər yeməyi də həmçinin. Məsələn, bundan öncə bizim mentalitetimizdə səhər yeməyinə getmək yox idi. Amma indi bazarda tələbat var. Bu tendensiyaları yeni nəsil inkişaf etdirir. Valideynlərimizin əksəriyyətinə deyəndə ki, gedək çöldə səhər yeməyi yeyək, deyəcəklər evdə var, niyə çöldə yeyək. Müasir gənclik belə düşünmür və bu vərdişi dəyişir".

"İNSANLAR HEÇ VAXT ƏYLƏNCƏLƏRİNDƏN QALMIRLAR"

Bu sahənin gələcəyinə gəldikdə isə, mütəxəssis vurğulayır ki, dünyada ən böyük bizneslərdən biri restoran biznesidir: "İnsanlar heç vaxt əyləncələrindən qalmırlar. Söhbət tək yeməkdən getmir, orada keçirdiyi asudə vaxt da əhəmiyyətlidir. Hazırda əsas tendensiya sağlam qidadır. İnsanlar bir vaxtlar məşhur olan "fast food"dan uzaqlaşır, sağlam qidaya yönəlirlər. Buna görə, restoran biznesinin ölkəmizdə də gələcəyi böyükdür".

BƏS RESTORAN SAHİBLƏRİ NƏ DÜŞÜNÜRLƏR?

Restoranlar şəbəkəsi olan Turxan Əlizadə təsdiqləyir ki, bu il onun dövriyyəsi ötən ildən yaxşı olub: "Pandemiya, müharibə dövrü, işçilərin xəstələnməsi bizə ciddi şəkildə təsir etmişdi. Tendensiya yavaş-yavaş inkişaf edir. Əvvəllər masalarımız 10 idisə, indi 15-ə qaldırdıq. Yaxud, pizza aparatlarımız əvvəl 10 ədəd bişirə bilirdisə, indi 20 ədəd bişirir. Bu da, təbii ki, dövriyyəni artırdı".

Sektorun inkişafına gəldikdə isə, gənc sahibkar deyir ki, tələbat var, amma bu sahədə peşəkar işçi tapmaq çətindir: "Məsələn, ofisiant kimi fəaliyyət göstərmək istəyən əməkdaşlarımızın 95 faizi gəncdir və işə keçici iş kimi baxırlar. Xaricdə 40, 50 yaşlı insanlar bu sahədə işləyirlər. Bizdə isə bundan utanırlar. Səbəb gəlir deyil, çünki peşəkarlar çox yaxşı pul qazanırlar. Məsələn, xaricdə 10 il işləyirlər, təzə gələn heyətə də mentor olurlar. Restoran mədəniyyətində ən böyük problem budur".

Restoran biznesinin gələcəyinə gəldikdə isə, həmsöhbətimiz bildirir ki, bu sahə ölkəmizdə ən yaxşılardandır: "Biz yeməyi, içməyi, əylənməyi sevən millətik. Ona görə bu sahənin inkişafı və mədəniyyətin formalaşması qaçılmazdır".

10-12 FAİZ ARTIM VAR

Bakıda məşhur restoranlardan birinin sahibi olan Fikrət Xəlilov isə deyir ki, sentyabr ayı ictimai iaşə biznesinin artım ayıdır: "İyun, iyul, avqust ayları bu biznesdə passivlik müşahidə olunur. Çünki yay ayları olduğu üçün insanlar bağlara köçür, rayonlara gedirlər. Sentyabr ayında isə hər kəs qayıdır və bu aktivlik təbiidir".

Mütəxəssis 2019-cu illə müqayisədə restorana müraciət edənlərin sayında 10-12 faiz artım olduğunu da bildirdi: "Elektron kassa aparatlarının quraşdırılması, əhalinin daha çox nağdsız ödənişlərə üstünlük verməsi avtomatik olaraq biznesin şəffaflaşmasına gətirib çıxarıb".

QƏRB AİLƏ MODELİNƏ KEÇİDİ MÜŞAHİDƏ EDİRİK

Azərbaycan Hotellər və Restoranlar Assosiasiyasının İdarə Heyətinin sədri Samir Dübəndi qəzetimizə açıqlamasında bildirdi ki, son vaxtlar əhalinin restoran mədəniyyətinin formalaşmasını, qərb ailə modelinə keçidi müşahidə edirik: "Bizim də ailələr evdə yemək bişirməkdən imtina edir, restoranlara gedirlər. Digər tərəfdən, Azərbaycan artıq tanınmış turizm destinasiyasıdır. Səfərdə olan insanın aldığı əsas xidmət də qidalanmadır. Restoran biznesi son illər bir çox transformasiyalara məruz qalıb. Məsələn, steyk üçün ət Braziliyadan, Avropadan gətirilir. Təxminən 15 il bundan öncə bizim restoranlar buna qarşı idi və öz heyvanımızın ətindən istifadə edirdilər. Sonradan məlum oldu ki, steyk üçün heyvan xüsusi yetişdirilir. İndi Bakıda məşhur steyk yerləri fəaliyyət göstərir".

BİR MİLYARD 300 MİLYONLUQ DÖVRİYYƏ

Mütəxəssis vurğulayır ki, ictimai iaşə sektorunun dövriyyəsi pandemiyadan öncəki illərlə müqayisədə hotellərin və turizm agentliklərinin birgə dövriyyəsindən iki dəfə artıq olub: "İctimai iaşənin il ərzində təxmini dövriyyəsi bir milyard 200 milyon - bir milyard 300 milyon arasında dəyişib. Biz hazırda həm restoran biznesinin inkişafının, həm də ictimai iaşə mədəniyyətinin formalaşmasının şahidiyik".

Rəqəmlər "azalıb" deyir, FERMERLƏR İNANMIR

Azərbaycanda quş əti istehsalı azalıb, yumurta istehsalı isə artıb. Lakin rəsmi statistika ilə mövcud rəqəmlər arasında uyğunsuzluq olduğu iddia edilir. Ekspertlər bu sahədə hansısa ciddi böhranın olduğunu düşünmürlər. Əksinə, qarşıdakı illərdə istehsalın artımı ilə bağlı perspektivlərin olduğu qənaətindədirlər.

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2023-cü ilin yanvar-sentyabr aylarında Azərbaycanın quşçuluq müəssisələrində diri çəkidə 57,5 min ton quş əti və 764,5 milyon ədəd yumurta istehsal olunub. Dövlət Statistika Komitəsi xəbər verir ki, 2022-ci ilin müvafiq dövrünə nisbətən quş əti istehsalı 2,9 faiz azalıb, yumurta istehsalı isə 27,5 faiz artıb. Ötən ilin yanvar-sentyabr aylarında quşçuluq müəssisələrində diri çəkidə 59,2 min ton quş əti və 599,4 milyon ədəd yumurta istehsal olunub. Rəqəmlərdən də göründüyü kimi, quş əti istehsalımızda azalma müşahidə olunur. Bəs bu azalmanın səbəbləri nələrdir?

"STATİSTİKA İLƏ BİZİM RƏQƏMLƏR UYĞUN DEYİL"

"Azərbaycan Quş əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyası" İctimai Birliyinin sədri Mürvət Həsənli deyib ki, azalmaya baxmayaraq bu sahədə ciddi problem yoxdur: "Statistika ilə bizim rəqəmlər uyğun deyil. Hazırda respublikada 300-350 min ədəd toyuq kəsilir. Bu, aylıq 10-12 ton quş əti deməkdir. Amma qeyd edilən statistikada rəqəmlər daha az göstərir. Həmçinin, hazırda yemin qiymətinin aşağı olması, digər quş əti istehsalı üçün vacib olan hər şeyin ölkəmizdə mövcudluğu istehsalın azalmasına əsas verə bilməz. Bazarlarda kifayət qədər quş əti satılır. Bütün böyük fabriklərin ehtiyat anbarlarında da donmuş şəkildə quş əti mövcuddur. Bu səbəbdən, istehsalın azalmasına səbəb yoxdur. Süfrə yumurtasında isə artım var. Hətta ilin ilk yeddi ayı ərazində xaricə 34 milyon yumurta ixrac etmişik. Keçən il isə bu rəqəm yeddi milyon idi. Bütün bunları ümumiləşdirsək, bu qənaətə gələrik ki, bu sahədə elə bir ciddi problem yoxdur".

Rəqəmlərin statistika ilə uyğun gəlməməsi mövzusunda isə müsahibimiz bildirdi ki, rəqəmlərin belə az göstərilməsinə səbəb yerli fabriklərin statistikasını gizlətməsi ola bilər. Çünki kiçik fabriklər bəzən statistikalarını gizlədirlər.

QIRMIZI ƏTİN BAHALAŞMASI QUŞ ƏTİNƏ TƏLƏBATI ARTIRIB

M.Həsənlinin sözlərinə görə, nə quş əti, nə də yumurta istehsalında sonrakı illər üçün də ciddi bir problem görünmür, əksinə, tələbat daha da artacaq: "Gələcək dövr üçün də ölkədə kifayət qədər quş əti istehsalı potensialı var. Bu gün ölkədə quş əti istehsalı ilə məşğul olan 787-dən çox fermer təsərrüfatı var. Hansı ki, onların müəyyən qismi çalışır ki, aylıq 10-12 min ton arasında quş əti istehsal olunsun. Süfrə yumurtası ilə bağlı mövcud durum da kifayət qədər rəqabətlidir. Gündəlik yumurta tələbatımız üç milyon 600 ədəddir. İstehsal isə dörd milyon 500 min və beş milyon arasıdır. Bu sahə ilə bağlı gələcəkdə həm quş ətində, həm də süfrə yumurtasında artım olacaq. Ona görə ki, bu məhsullara tələbat gündən-günə artır. Keçən il quş ətinə tələbatımız 150 min ton idisə, bu il həmin göstərici 165-170 min tona qədər qalxıb. O cümlədən, yumurtaya olan tələbat illik adam başına 147 ədəd idisə, bu il artıq 157-ni keçib. Bu məhsullara tələbatın artmasının da səbəbi əhalinin tələbatının bu istiqamətdə olmasıdır. Yəni qırmızı ətin bir az baha olması ağ ətə meylliliyə səbəbə ola bilər".

Mürvət Həsənli

FERMERLƏR ÜSTÜNLÜYÜ YUMURTA İSTEHSALINA VERİBLƏR

İqtisadçı Emin Qəriblinin fikrincə, quş əti istehsalında azalmanın səbəbi yumurta istehsalına diqqətin daha çox artması ola bilər: "2,9 faiz azalma normaldır. Çünki bazar özü dalğavarı inkişaf edir. Göründüyü kimi, yumurtada artım mövcuddur. Bazara baxdıqda görərik ki, quş əti yetərli qədər çoxdur. Yəqin ki, fermerlər bunu nəzərə alaraq yumurta istehsalına daha çox diqqət ayırıblar. Çünki bu sahədə xaricdə də qıtlıq yaranmışdı. Əgər azalma ilə bağlı yüksək rəqəmlər qeydə alınsaydı, səbəblər daha ciddi olardı".

Emin Qəribli

KİÇİK İSTEHSALÇILAR BÖYÜK BİZNESƏ UDUZURLAR

İqtisadçı Rauf Qarayev isə dedi ki, istehsalın zəifləməsinə səbəb müxtəlif ola bilər: "Bəzən sahibkar bazarda öz malını sata bilmir. Nəticədə məcburdur fəaliyyətini dondursun. Bundan sonra müəyyən məqam gözləsin ki, bazar nə vaxt əlverişli olacaq. İstehsalın azalmasında monopoliya da öz rolunu oynaya bilər. Bu səbəbdən kiçik sahibkarlar bazarda olan rəqabətə dözə bilmir, biznesini daha iri müəssisələrə satırlar. Bəzən sahibkar biznes qurmaq üçün kredit götürür. Uğurlu ola bilmir və borcu ödəmək imkanı olmur. Bu səbəbdən məcburən biznesini satır. İstehsalın azalması müvəqqəti də ola bilər".

Rauf Qarayev

XALQ ARTİSTİ, "ŞÖHRƏT" ORDENLİ BƏSTƏKAR FAİQ SÜCƏDDİNOV MƏKTƏBLİLƏRLƏ GÖRÜŞDƏ

"PİANO ARXASINDA OTURANDA XOŞBƏXT OLURAM"

Faiq Sücəddinov: "Sevdiyiniz sənətin arxasınca gedin. İmtahanda balınız çatmadığı üçün sevmədiyiniz sahəni seçməyin, onda ömür boyu əziyyət çəkəcəksiniz. İnsanın öz işini sevməsi xoşbəxtlikdir".

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Faiq Sücəddinov canlı korifeydir. Azərbaycana xidmət edən görkəmli ziyalılarımızdandır. O, öz musiqisi ilə ruhumuzu oxşayır, əhvalımızı duruldur. Onun mahnılarını ölkənin ən tanınmış müğənniləri oxuyub. Onun mahnılarını hamı sevir..."

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin "Kaspi" qəzeti ilə birgə reallaşdırdığı "Məktəbdə" layihəsində qonaq olan Xalq artisti, Əməkdar İncəsənət xadimi, "Şöhrət" ordenli bəstəkar Faiq Sücəddinov məktəblilərə belə təqdim olundu. 42 saylı tam orta məktəbdə baş tutan görüş şagird və müəllimlərin yaddaşına həm də nəğməli, musiqili notları ilə yazıldı.

"İNSANIN ÖZ İŞİNİ SEVMƏSİ XOŞBƏXTLİKDİR"

"Uzun illər Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rejissorluq fakültəsində dərs demişəm. Türkiyədə də, Şimali Kiprin Doğu Akdeniz Universitetində də müəllim kimi çalışmışam", - deyə qonaq həyat tarixçəsini vərəqlədi: "Kipr universitetlər ölkəsidir. Yeddi il Doğu Universitetində dərs dedim. 2004-cü ildə öz istəyimlə oradan ayrıldım. Oğlum orada universitetdə oxuyurdu. O diplom alan kimi mən də universitetdən ayrıldım. Bakı üçün darıxırdım. Sonradan yenə dəvət etdilər, daha getmək istəmədim. Bu gün dünya siz gənclərə açıqdır. Hara getsəniz "Məsləkiniz nədir?" - deyə sizdən soruşacaqlar. Heç vaxt azərbaycanlı olduğunuzu unutmayın. Xaricdə oxumağa gedin, amma həmişə Azərbaycana dəstək olun. Valideynlərinizə və müəllimlərinizə hörmət edin, onları sevin. Mənim müəllimlərə böyük hörmətim var".

Bəstəkar məktəblilərə sənət seçimində diqqətli olmalarını tövsiyə etdi: "Sevdiyiniz sənətin arxasınca gedin. İmtahanda balınız çatmadığı üçün sevmədiyiniz sahəni seçməyin, onda ömür boyu əziyyət çəkəcəksiniz. İnsanın öz işini sevməsi xoşbəxtlikdir".

"UŞAQLAR FUTBOL OYNAYIRDI, FİKRİM ONLARIN YANINDA QALIRDI"

F.Sücəddinov uşaqlığını xatırlayaraq musiqiyə həvəsinin necə yaranmasından söhbət açdı: "Evimizdə paltartikən maşın vardı. Onun qapağını vurub çalırdım. Bir gün anam əlimdən tutub musiqi məktəbinə apardı. Təbii ki, darıxırdım. Uşaqlar küçədə futbol oynayırdılar, fikrim onların yanında qalırdı. Amma bilirdim ki, mənim həyatım budur. Sonra Asəf Zeynallı adına Musiqi Məktəbinə daxil oldum. Oranı bitirəndən sonra Xarici Dillər Universitetində oxudum. Nəhayət, musiqiyə olan həvəsim məni Musiqi Akademiyasının bəstəkarlıq fakültəsinə gətirdi. Böyük bəstəkar Qara Qarayevin sinfində oxudum. Uşaqlıqdan bəri musiqi həyatımın bir hissəsinə çevrildi. İndi də hər gün iki saat sənətimlə məşğul oluram. Yaradıcılıq elə işdir ki, onunla mütləq hər gün məşğul olmalısan ".

"XOŞBƏXT SƏNƏTKARAM Kİ..."

F.Sücəddinovun mahnılarını ölkənin ən tanınmış və sevilən müğənniləri ifa edib. Bəstəkar buna görə özünü xoşbəxt hesab edir: "Xoşbəxt sənətkaram ki, Rəşid Behbudovla, Şövkət Ələkbərovayla, Gülağa Məmmədovla işləmişəm. Onlar çox maraqlı insanlar idi. Mahnılarım Flora Kərimova, Brilyant Dadaşova, Akif İslamzadə kimi sevilən müğənnilərin ifasında səslənib. 44 günlük müharibə vaxtı "Zəfər" simfonik poemasını yazdım. Bir il əvvəl "Şuşa" oratoriyasını bitirdim. Bunlar son işlərimdir. Yaradıcılıq davam edir..."

Şagirdlərdən biri "Məktəb illərinizi necə xatırlayırsınız? Necə şagird olmusunuz", - deyə soruşdu. Bəstəkar "məktəb illərində bütün uşaqlar dalaşır, barışır, futbol, voleybol oynayır", - deyə xatırladı: "Nizami" metro stansiyasından yuxarıda - Qubanov küçəsində yaşayırdıq. Ətrafda cürbəcür insanlar vardı. Biz öz həyatımızı yaşayırdıq. Kimsə pis hərəkət edəcəksə, onu təkrarlamaq yox, ondan qaçmaq lazımdır. Siz də öz yolunuzu tapmağa çalışmalı, öz həyatınızı qurmalısınız. Xoşbəxtlik öz əlinizdədir".

"XUDAYARIN MAHNISINI EŞİTDİM"

"Qarabağ müharibəsi və qazanılan böyük Zəfərin sizdə yaratdığı əhval-ruhiyyə necədir?" sualına "Cabir Novruzun "Vətəndən pay olmayır" şeirinə mahnı yazdım", - deyə bəstəkar cavab verdi: "Mahnını Mübariz Tağıyev oxudu və böyük səs-küy yaratdı. Mahnıda "Vətəni sevmək azdır, onu qorumaq gərək" deyilir. Biz ingilis və ya fransız deyilik. Bizim öz dilimiz, öz mədəniyyətimiz var. Mən koronavirusa yoluxub bərk xəstələndim. "Neftçilər" xəstəxanasında müalicə alırdım. Onda televizorda Xudayarın mahnısını səsləndirdilər. Yüksək temperatur içərisində o mahnını ağlayaraq dinlədim. O mahnı Vətən idi. Mən də vətənpərvərlik mahnıları yazmışam. "Vətən balladası", "Vətən harayı" və s. Çünki Vətənimi sevirəm. Həmişə bu sualı özümüzə verməliyik: "Vətən sənin üçün yox, sən vətən üçün nə etmisən?" Hərəmiz öz işimizlə vətənə xidmət etməliyik. Azərbaycan Vətən müharibəsində böyük qələbə qazandı. Təbii ki, müharibədə şəhidlər olur. Onların qanı hesabına bizim torpaqlar işğaldan azad edildi. Mən cənab Prezidentlə dörd dəfə Şuşada olmuşam. Şuşa çox gözəldir. Siz də gedəcəksiniz, suyundan içəcəksiniz, havasını udacaqsınız...".

Fotolar: Rüfət Mikayılov/Global Media Group

"GÖZ YAŞI AXMADAN NECƏ YAZMAQ OLAR?"

"Bir mahnının populyar olması söz müəllifindən nə qədər asılıdır?" - deyə şagirdlərdən biri maraqlandı: "Bir dəfə Aviasiya Akademiyasının rektoru Arif Paşayev mənimlə söhbətində dedi ki, auditoriyaya girən müəllim eyni şeyi deməməlidir. Yaradıcı adam da işlədiyi əsərin mütləq şlyager olacağını düşünmür. Bu, onun ürəyinin bir parçasıdır. Gözəl şeir itməməlidir. Bəzən bir şeirə bir neçə bəstəkar mahnı yazır, amma onlardan biri qalır. Yaradıcı insan sevə-sevə yazmalıdır. Göz yaşı axmadan necə yazmaq olar? Bu, həyatdır".

"Niyə uşaq mahnıları yazmırsınız?"- deyə sual ünvanlayan şagirdə bəstəkarın cavabı bu sahədəki problemi də gündəmə gətirdi: "Qabaqlar uşaq redaksiyası vardı. Mahnıları alırdılar, təbliğ edirdilər. "Bənövşə" ansamblı vardı. Uşaq verilişləri hazırlanırdı. İndi hara üçün yazaq?"

"İNDİKİ MUSİQİÇİLƏRƏ QULAQ ASMAYIN"

"Bu gün gəncliyin musiqi zövqü sizi qane edirmi?" sualına cavab axtaran şagirdə bəstəkarın cavabı tövsiyə kimi səsləndi: "Musiqi zövqünü evdə valideyn formalaşdırır. Mənim oğlum hərbçidir, uşaqlıqda cazı sevirdi. Mən özüm də ifa edirdim. Onun musiqi zövqü beləcə formalaşdı. Siz də indiki musiqiçilərə qulaq asmayın, onlar sizin zövqünüzü korlayacaq. İndi nəyi təbliğ edirlərsə, camaat da ona qulaq asır. Siz onlardan yan keçin. Bizim yaxşı musiqilərimiz var, onları axtarıb tapın, dinləyin. Azərbaycanın çox zəngin mədəniyyəti, musiqisi var. Bizim muğamımızdan dünyanın heç yerində yoxdur. Zövqünüzü onların üzərində formalaşdırın".

"DÜNYANI SEVGİ İDARƏ EDİR"

Faiq Sücəddinov piano arxasına keçərək mahnılar da ifa etdi: "Mən hər dəfə piano arxasında oturanda xoşbəxt oluram. Həmişə dərs deyəndə "Dünyanı sevgi idarə edir" deyirəm. Bu, Vətənə, millətə, sənətə olan sevgidir. Mən musiqi yazanda sevərək yazıram".

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
28 OKYABR ŞƏNBƏ 2023
www.kaspi.az

Az qala hər gün "Araz Naxçıvan"dan transfer xəbərləri gəlirdi. Prosesin belə gedişatı futbol ictimaiyyətində gülüş doğururdu. Əksəriyyət hesab edirdi ki, sanki gözüyumulu edilən transferlər effekt verməyəcək və komanda autsayder olacaq. Lakin...

FUTBOLUMUZDA YENİ SİMA

FAİQ TAHİROV

Bu mövsüm Azərbaycan futbolunda diqqəti ən çox cəlb edən "Araz Naxçıvan" klubudur. Muxtar Respublika təmsilçisi həm göstərdiyi oyun, həm də nəticələri ilə təəccübləndirməyi bacarır. Komanda Azərbaycan Premyer Liqasında 10 turda 17 xal toplaya bilib və 10 komanda arasında dördüncü pillədədir. Kollektiv "Səbail"lə eyni göstəricilərə malikdir və yalnız öz aralarındakı oyunda məğlubiyyətə görə geri qalır. "Ağ-qırmızılar"ı liderlər - "Zirə" və "Qarabağ"dan cəmi üç xal ayırır.

"Araz-Naxçıvan"ın nəticələrinin təəccüb doğurmasının səbəbi komandanın bu mövsümdən Premyer Liqada iştirak etməsidir. Ötən mövsüm I Divizionda (Hazırda bu yarış I Liqa adlanır - red.) çempion olan Naxçıvan klubundan bunu gözləyən ya çox az idi, ya da ümumiyyətlə yox idi. Adətən Azərbaycanda elitaya yeni yüksələn kollektivlər ilk ildə çempionatda mövqeyini qorumaq mübarizəsi aparırlar.

GÖZLƏNİLMƏZ ÇIXIŞIN MEMARI

"Araz-Naxçıvan"ın uğuru komandanın baş məşqçisi Azər Bağırova diqqətləri artırıb. Komandanın nəticələri bir yana, həm də baxımlı oyun sərgiləməsi məşqçi işinin qabarmasına səbəb olub.

Komandası kimi baş məşqçi də Premyer Liqada debüt mövsümünü keçirir. Düzdür, gənc olmasına baxmayaraq, onun məşqçi kimi kifayət qədər təcrübəsi var. Lakin heç vaxt bu səviyyədə çalışmayıb.

Bağırov futbolçu kimi elə də uğurlu karyeraya sahibi deyil. O, "Qarabağ"ın əvəzedici komandasında çempionluq əldə etdikdən sonra "Xəzər Universiteti", "Neftçi", "Salyan", "Masallı", "ABN Bərdə", "Qəbələ", "Ədliyyə" klublarında çıxış edib.

Məşqçiliyə isə 2010-cu ildə başlayıb. O, əvvəlcə "Neftçi"də seleksiyaçı məşqçi kimi çalışıb. Daha sonra iki il U-16 millisində Nikolay Adamın köməkçisi olub. Ardınca "Qəbələ"dən təklif alan mütəxəssis klubun 16 yaşlılardan ibarət komandasında çalışıb. Pro kateqoriyalı məşqçi sonradan "qırmızı-qaralar"ı Luis Araqonla birlikdə səkkiz Premyer Liqa oyununa çıxarıb. Ardınca yenidən uşaq futboluna qayıdaraq "Qəbələ"nin U-12 komandasında işləyib.

PREMYER LİQAYA APARAN YOL

Bundan sonra mütəxəssis özünü I Divizionda sınayıb. Öncə "Qaradağ Lökbatan"da fəaliyyət göstərən Bağırov 2018/19 mövsümündə MOİK-i çempion edə bilib. Lakin komanda Premyer Liqaya buraxılmayıb. 2019-cu ildə "Turan Tovuz"u altı matça çıxaran mütəxəssis beş qələbə, bir məğlubiyyətlə oradan ayrılıb və yenidən "Qəbələ"yə qayıdıb. Baş məşqçi Elmar Baxşıyevin köməkçisi olub. Lakin Pro lisenziyası olduğuna görə baş məşqçi kimi protokolda onun adı qeyd olunub. Daha sonra mütəxəssis "Keşlə" klubunda Sənan Qurbanovun köməkçisi olub və Azərbaycan kubokunu əldə edib. "Keşlə"dən ayrıldıqdan sonra "Səbail"in əvəzedici komandasında üç tur çalışan mütəxəssis Region Liqasında mübarizə aparan "Araz Naxçıvan"dan dəvət alıb. İki aydan sonra komanda I Diviziona yüksəlib. Orada əldə edilən uğur Bağırovu və komandasını Premyer Liqaya gətirib. "Araz Naxçıvan"ın Premyer Liqaya hazırlığı kifayət qədər ağrılı keçdi. Mövsümün startına az qalmış hələ bəlli deyildi ki, komanda harada oynayacaq, heyətdə kimlər yer alacaq. Yalnız yeni mövsümə bir ay qalarkən heyətin formalaşdırılmasına başlanıldı. Bağırov məşqçilər korpusuna inandığı adamları seçdi. Transferlər isə ard-arda oldu. Komandaya təcrübəli, amma futbol səhnəsindən uzaqlaşmış yerli futbolçular, gənc oyunçular və çoxlu əcnəbilər cəlb olundu. Az qala hər gün "Araz Naxçıvan"dan transfer xəbərləri gəlirdi. Prosesin belə gedişatı futbol ictimaiyyətində gülüş doğururdu. Əksəriyyət hesab edirdi ki, sanki gözüyumulu edilən transferlər effekt verməyəcək və komanda autsayder olacaq. Lakin, görünür, Bağırovun seleksioner keçmişi ona düzgün seçimlər etməyə imkan yaradıb.

GENERAL OLMAQ İSTƏYƏN ƏSGƏR

"Araz Naxçıvan"ın ilk turda "Turan Tovuz"a böyük hesablı məğlubiyyətdən sonra toparlana bilib ardıcıl uğurlu nəticələr əldə etməsi, "Neftçi", "Sabah" kimi komandalardan xal alması, qazanılan qələbələr A.Bağırovun milli komandaya namizədlər sırasında göstərilməsi ilə nəticələnib. "Qəbələ" üzərində səfər qələbəsindən sonra ona bununla bağlı sual da verilib. Mütəxəssis bildirib ki, hər əsgər general olmaq istəyir və onun da məşqçi kimi böyük hədəfləri var. O, qısa müddətdə komandasının nümayiş etdirdiyi futbol və qazandığı nəticələrlə rəğbət qazanmağı bacarıb. Məhdud imkanlarla qurulan düzgün işin nəticəsində əldə edilənlər baş məşqçi kimi onun gələcəyinin parlaq olduğunu deməyə imkan verir. Uzun illər sonra Azərbaycanda idman prinsipinin gözlənməsi, aşağı liqadan elitaya komandanın yüksəlməsi ölkə futboluna Azər Bağırovun timsalında yeni bir sima qazandırıb. Davamlı olsun!

"AZERÇAY"IN DƏSTƏKLƏDİYİ MİNİFUTBOL KOMANDASI AVROPA ÇEMPİONU OLDU

18-22 oktyabr tarixlərində Türkiyənin Antalya şəhərində keçirilən minifutbol üzrə Avropa çempionatına yekun vurulub. Ölkə xaricində Azərbaycanın təmsil olunması üçün illərdir dəstəyini əsirgəməyən "Azerçay" növbəti dəfə ənənəsinə sadiq qalıb. Adıçəkilən yarışda ölkəmizin adından doğma çayın sponsorluğu ilə "Azərsun" minifutbol klubu iştirak edib. Həyəcanlı və gərgin keçən yarışda rəqiblərinə qalib gələn "Azərsun" minifutbol komandası mərhələləri keçərək , finalda Rumıniyanın "Dedeman Oradea" kollektivi ilə qarşılaşıb. Rəqibinə şans tanımayan minifutbol klubumuz 4-0 hesabı ilə qalib gələrək kuboku başı üzərinə qaldırıb.

Bakıya qayıdan çempionları Hava Limanında onlarla azarkeşi qarşılayıb. Minifutbol klubunun direktoru Rafiq Şahverdiyev açıqlama verərək, əldə olunan uğura görə çox sevincli olduqlarını bildirib. Bu günlər ərzində komandaya dəstəyini ifadə edən hər kəsi təbrik edib. Rafiq Şahverdiyev idmançıların bu yarışda iştirak etməsi üçün dəstək verən "Azərsun Holdinq"in Müşahidə Şurasının sədri Abdolbari Gozala təşəkkürünü bildirib. Onun sözlərinə görə son dövrlərdə "Azərsun" minifutbol komandasının uğurları məhz Abdolbari Gozalın etimadının nəticəsidir. Şirkət rəhbəri ilk günlərdən əməkdaşların bacarıqlarına güvənərək onlara dəstək olub.

Qeyd edək ki, "Azerçay"ın dəstəyi ilə adıçəkilən minifutbol klubu ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilən şirkətlərarası minifutbol turnirinin qalibi olaraq , ölkəmizi Avropada təmsil etmək hüququ qazanmışdı.